RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 241 (9696) 1 noyabr 2024-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Murovdan Xankəndiyədək Zəfər yolu



## Daxili İşlər Nazirliyinin əməkdaşları Vətən Müharibəsində və antiterror tədbirlərində vəzifə borclarını şərəflə və qəhrəmanlıqla icra etdilər

2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatı nəticəsində Murov istiqamətindən başlayan hərbi əməliyyatların 2023-cü ilin 20 sentyabrında Qələbə bayrağımızın Xankəndidə ucalmasınadək davam edən şanlı Zəfər yürüşündə Daxili İşlər Nazirliyinin əməkdaşları və hərbi qulluqçuları da böyük şücaət, fədakarlıq nümunələri göstərdilər, qanları və canları hesabına Qarabağın tam azadlığına nail oldular.

Unutmayaq ki, onlar paytaxtımızın Azadlıq meydanında, ardınca da Xankəndidə keçirilmiş qələbə paradlarında Müzəffər Ali Baş Komandana Qələbə raportunu verən, həmçinin ötən əsrin sonlarından etibarən torpaqlarımızın bütövlüyü uğrunda başlayan savaşın ilk qəhrəmanlarından idilər.

Bu mübariz qurumun cəsurluq, mərdlik kimi qətiyyətli prinsiplər əsasında formalaşmasının nəticəsi idi ki, 1988-ci ildə müasir silah və texnika ilə təchiz edilmiş erməni hərbi birləşmələrinə qarşı Vətənin müdafiəsinə ilk olaraq qalxan, milli müqavimətin önündə dayanan və uzun müddət rəşadətlə vuruşan yeganə nizami qüvvə məhz Daxili İşlər Nazirliyinin şəxsi heyəti oldu.

Vətən savaşında 1695 əməkdaşı və hərbi qulluqçusu şəhidlik zirvəsinə ucaldı, 1710 nəfər isə yaralandı. Göstərdikləri şücaət və igidliklərə görə 67 nəfər "Milli Qəhrəman" adına, 1143 nəfər orden və medallara layiq görüldü. Bu rəqəmlər yalnız statistika deyil, əslində, polisin və Daxili Qoşunların qürur, şərəf salnaməsinin ən parlaq səhifələrindən biridir.

Daxili işlər orqanları I Qarabağ savaşında yarımçıq qalmış missiyanı II Qarabağ müharibəsində Zəfərlə yekunlaşdırdı, Ali Baş Komandanın "İrəli!" əmrini 44 gün ərzində layiqincə icra etdi.

Cəbhənin bütün istiqamətlərində, ən ağır döyüşlərdə, ən çətin əməliyyatlarda, o cümlədən Şuşanın azad edilməsində iştirak edərək, yüksək peşəkarlıqları və böyük vətənpərvərlikləri ilə qəhrəmanlıq örnəkləri yaratdılar, düşmənə qarşı cəsarətlə vuruşaraq, torpaqlarımızın azad olunması üzrə döyüş tapşırıqlarını tam həcmdə yerinə yetirdilər.

Vətən müharibəsi dövründə Daxili İşlər Nazirliyinin tibbi və maddi-texniki təminat xidmətlərinin hərbi qulluqçuları da döyüş bölgəsinə ezam olundular, öz sahələri üzrə qarşıya qoyulan vəzifələrin öhdəsindən bacarıqla gəldilər. Səfərbərliyə cəlb edilənlər sırasında ehtiyatda olan hərbi qulluqçular da vardı. Övladları və yaxın qohumları döyüşlərdə həlak olmuş, habelə qazi olan veteranlar da yetərincə idi.

Vətən Müharibəsindən sonra həyata keçirilən hərbi əməliyyatlar, ən nəhayət, antiterror tədbirləri daxili işlər orqanlarının döyüş tarixinin növbəti şərəfli səhifəsi oldu. Ötən ilin 19-20 sentyabrında Daxili İşlər Nazirliyinin şəxsi heyətinin də iştirak etdiyi antiterror tədbirlərində 24 saatdan da az bir müddətdə Azərbaycan Respublikasında separatizm birdəfəlik məhv edildi.

Bu əməliyyatda da yüksək peşəkarlığa və döyüş hazırlığına malik olduqlarını nümayiş etdirən əməkdaşlar və hərbi qulluqçular yeni qəhrəmanlıq dastanı yazdılar. 20 nəfər şəhidlik zirvəsinə ucaldı, 24 nəfər isə yaralandı.

→ 7

# Yeni nəsil metro qatarları Bakıda



### Prezident İlham Əliyev Bakıda komplektləşdirilən yeni nəsil metro qatarları ilə tanış olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 31-də "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) Bakıda komplektləşdirilən yeni nəsil metro qatarları ilə tanış olub.**

→ 2

# Azərbaycanda karbon emissiyasının azaldılması istiqamətində ciddi addımlar atılır



### Prezident İlham Əliyev Zığ Elektrik Avtobus Parkının fəaliyyəti ilə tanış olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 31-də Bakıda Zığ Elektrik Avtobus Parkının fəaliyyəti ilə tanış olub.**

→ 2

# Qərbin məkri Gürcüstanda puça çıxdı

Gürcüstanda ümumilikdə 18 siyasi partiyanın iştirakı ilə keçirilən parlament seçkiləri hakim "Gürcü Arzusu - Demokratik Gürcüstan" partiyasının üstün qələbəsi ilə başa çatdı. Seçicilərin 53,92 faizinin səsini toplayan partiya bu göstərici ilə rəqibi olan 4 müxalifət partiyasının birgə topladığı səsi geridə qoydu. Belə ki, 4 müxalifət partiyası parlamentə düşə bilmək imkanı qazansalar da, topladıqları ümumi səs heç 38 faizə çatmadı. Beləliklə, bir daha Gürcüstan vətəndaşlarının etimadını qazanan "Gürcü Arzusu - Demokratik Gürcüstan" partiyası ölkənin aparıcı siyasi qüvvəsi olduğunu yenidən sübut etdi.

Oktyabrın 26-da keçirilən parlament seçkiləri tamamilə demokratik şəraitdə baş tutdu. Hətta bu seçkidə ilk dəfə kütləvi formada elektron səsvermə tətbiq edildi. Seçkiləri izləyən xarici təşkilatların nümayəndələri isə səsvermə prosesində tutarlı və ciddi qanun pozuntusu halını qeydə almadılar. Amma buna baxmayaraq, Qərb siyasi dairələri seçkinin nəticələrini tanımaqdan yayınır, səsvermənin saxtalaşdırıldığını iddia edirlər. 5 faizlik baryeri ötən və parlamentə düşən partiyalar isə Qərbdən aldıqları təlimatlara əsasən parlamentə getməkdən imtina edirlər.

→ 10



# "Dünyanın ədalətli söhbətə ehtiyacı var"

### ***Aleksandr LUKAŞENKO:*** "Qlobal təhlükəsizliyin təmin edilməsi üçün işlək mexanizmlər yaratmaq barədə düşünməliyik"

"Dünyanın ədalətli söhbətə və cari hadisələrin qərəzsiz qiymətləndirilməsinə həyati ehtiyacı var". Bu barədə Belarus Prezidenti Aleksandr Lukaşenko Avrasiya təhlükəsizliyi üzrə II Minsk Beynəlxalq konfransının açılışında bildirib: "Müxtəliflik və Çoxqütblülük Xartiyası təhlükəsizlik sahəsində konsensusa kömək etmək üçün nəzərdə tutulub. Təəssüf ki, bu gün beynəlxalq təhlükəsizlik mövzusunda açıq, konstruktiv ekspert müzakirələrinin aparılacağı platformaları barmaqla saymaq olar".

Prezidentin vurğuladığı kimi, mövcud təhlükəsizlik problemlərinin həllinin açarı Avrasiyadadır: "İndi biz hərbi qarşıdurmaların və xərclərin yükünü necə atmaq, cari problemlərin həllində yeni açar tapmaq və qlobal təhlükəsizliyin təmin edilməsi üçün işlək mexanizmlər yaratmaq barədə düşünməliyik. Belə bir açar Avrasiyadadır, mədəniyyətlər və sivilizasiyalar arasında qarşılıqlı əlaqələr və maraqlar burada kəsişir. O, gələcəkdə də burada olacaq. Məhz Avrasiyada ümumi təhlükəsizliyə doğru hərəkata rəhbərlik etməyə qadir olan və artıq bir sıra təşəbbüslər irəli sürən ölkələr var".

Konfrans oktyabrın 31-də yüksəksəviyyəli sessiya ilə başlayıb. Macarıstanın xarici işlər və xarici ticarət naziri Peter Siyarto, Rusiyanın xarici işlər naziri Sergey Lavrov və digər ölkələrin rəsmi təmsilçiləri çıxış ediblər.

Qonaqlar arasında həmçinin regiondakı beynəlxalq təşkilatların rəhbərləri - KTMT, AQFET, MDB baş katibləri, İttifaq dövlətinin dövlət katibi var.

→ 12

# Avropa Parlamenti özü özünü ifşa edir

### "Xristian klubu"nun qərəzli qətnaməsini digər kağız parçalarının taleyi gözləyir

Avropa Parlamentinin son günlər tutduğu mövqe, əslində, Azərbaycana qarşı başlatdığı hibrid savaşda Qərb imperializminin özünün məğlubiyyətidir. Qurumun həmişəki radikal ritorikasını saxlamasına baxmayaraq, qətnamədə müşahidə olunan çaşqınlıq bu qənaətə gəlmək üçün aydın mənzərə formalaşdırır. Məsələn, əvvəllər COP29-un Azərbaycanda keçirilməməsi üçün çağırışlar platformasına çevrilən Avropa Parlamentinin son qətnaməsində çarəsizcəsinə çağırış olunur ki, tədbir çərçivəsində Azərbaycana insan hüquqları üzrə öhdəlikləri xatırladılsın. Deməli, Avropa Parlamentində artıq başa düşülür ki, 200-ə yaxın dövlətin Azərbaycana ehtiramı və etimadı qarşısında COP29-un Bakıda təşkilinə mane olmaq üçün onların nifrət dili reallığı dəyişmək gücünə malik deyil. Yəni Avropa Parlamenti Azərbaycanın hərbi-siyasi zəfərləri ilə regionda yaranan yeni reallıqların fövqündə özü deyib, özü eşidən bir heçə çevrilib. "Gürcüstanda parlament seçkilərinin nəticələri də göstərdi ki, cənab İlham Əliyevin hərbi-siyasi qələbələrindən sonra Qərb imperializminin Azərbaycandan başlanan məğlubiyyət dairəsi genişlənməkdədir. Avropa Parlamentinin heç bir faktiki və hüquqi əsasa söykənmədən səhih olmayan, özlərinin uydurduğu qərəzli mənbələrə istinadən rəsmi sənəd qəbul etməsi həm də onu göstərir ki, bu təsisat Azərbaycanın qlobal miqyasda artan imkan və nüfuzu, habelə dəyişən yeni reallıqlar və cənab İlham Əliyevin formalaşdırdığı konfiqurasiya fonunda aciz qalıb. Əks halda, Avropa Parlamenti qəbul etdiyi rəsmi sənədə heç bir reallığı əks etdirməyən və saxta əsaslara söykənməsi sübut edilən mənbələrə istinad etmək məcburiyyətində qalmazdı".

→ 10

# Ermənistanda əhali yaşamır, sürünür

### Bağlı qapılar arxasında Paşinyana qarşı yeni hərəkat yaratdılar

Artıq iflic vəziyyətində olan Ermənistan iqtisadiyyatının rəqabətə davamlılıq reytinqi aşağı düşməkdədir. Elə ötən 8 ay ərzində ölkə iqtisadiyyatının rəqabət imkanları nəzərəçarpacaq dərəcədə zəifləyib. Buna səbəb dövlət rəsmilərinin korrupsiyaya qurşanması, qanunun aliliyi ilə bağlı problemlərin həllini tapmaması və biznes üçün bərabər şəraitin yaradılmamasıdır. Məhkəmə sisteminin müstəqilliyi yarıtmaz vəziyyətdədir, vergilərin toplanmasında korrupsiya halları geniş vüsət alıb, hökumət iqtisadi inhisarçılığa qarşı mübarizə aparmaqda acizdir.

Bütün bunların nəticəsidir ki, Ermənistanda Nikol Paşinyan hökumətinə qarşı "Üçüncü Qüvvə" platforması yaradılıb. "Past" nəşrinin yazdığına görə, bu qurumun məqsədi Ermənistanda hakimiyyət dəyişikliyi etməkdir. Qeyd edilir ki, Ermənistanın ictimai-siyasi həyatında əlamətdar hadisə baş verib. İrəvanda "Elit Plaza" biznes mərkəzində bağlı qapılar arxasında, mediasız, bir neçə partiya və onlarca QHT-nin iştirakı ilə toplantı keçirilib. İclasda "Üçüncü Qüvvə" platformasının yaradıldığı elan edilib. Üç saat davam edən tədbirə 600-ə yaxın insan qatılıb.

→ 12



# Yeni nəsil metro qatarları Bakıda

## Prezident İlham Əliyev Bakıda komplektləşdirilən yeni nəsil metro qatarları ilə tanış olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 31-də "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) Bakıda komplektləşdirilən yeni nəsil metro qatarları ilə tanış olub.**

AZƏRTAC xəbər verir ki, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin sədri Zaur Hüseynov dövlət başçısına qatarlar barədə məlumat verdilər.

Bildirildi ki, "Qlobalnıye Transportnıye Reşeniya" MMC ilə "Bakı Metropoliteni" QSC arasında bağlanmış müqaviləyə əsasən, 2024-2026-cı illər ərzində 65 yeni vaqonun (13 qatar tərkibi) istehsal edilərək Bakı metropoliteninə gətirilməsi nəzərdə tutulub. Həmin müqaviləyə uyğun olaraq, 2024-cü ildə 35 (7 qatar tərkibi), 2025-ci ildə 20 (4 qatar tərkibi), 2026-cı ildə isə 10 vaqon (2 qatar tərkibi) istehsal edilməlidir.

Diqqətə çatdırıldı ki, "81-765 B/766 B" seriyalı qatar tərkibi innovasiyalar baxımından 4-cü nəslə mənsubdur. Vaqonlar "Bakı Metropoliteni" QSC-nin texniki şərtlərinə uyğun istehsal olunub və yığılaraq komplektləşdirilməsi Bakı metropolitenində təşkil edilir. Vaqonların yığılması prosesi digər metropolitenlər üçün nəzərdə tutulmuş standart layihə əsasında deyil, Avropanın ən yüksək texnoloji tələblərə cavab verən aparıcı istehsalçılarının avadanlıq və sistemləri ilə aparılır. Bakı metropoliteninin mürəkkəb relyefi, texniki xüsusiyyətləri, paytaxtın iqlimi, geoloji şəraiti nəzərə alınmaqla avadanlıqların istismar müddətində yüksək təhlükəsizlik tələblərinə cavab verməsinə, etibarlılığına, uzunömürlülüyünə, istehsal zəmanətinə, səmərəliliyinə və digər üstünlüklərinə diqqət yetirilib. Bu xüsusda, Avropa istehsalçıları ilə 9 müqavilə imzalanaraq avadanlıqların birbaşa Bakıya gətirilməsi təmin edilib. Nəticədə, vaqonların yüksək keyfiyyət standartları təmin edilməklə yığılmasının Bakıda tamamlanaraq xəttə buraxılması nəzərdə tutulub.

Vaqonların Bakıda yığılaraq komplektləşdirilməsi, sazlama, həmçinin sınaq işlərinin aparılması məqsədilə Bakı metropoliteninə istehsalçı şirkətin 54 nəfərdən ibarət heyəti ezam edilib. Yeni nəsil qatarların hər birinin baş vaqonları 315, orta vaqonları 329 sərnişin üçün hesablanıb. Baş vaqonlarda 38, orta vaqonlarda 44 oturacaq var. Vaqonların qapıları 1400 mm olmaqla əvvəlki nəsil vaqonlarla müqayisədə 12 faiz daha genişdir. Qatarlarda əlil arabaları, iri yüklər və uşaq arabaları üçün çoxfunksiyalı zonalar, mikroiqlim nəzarəti, videomüşahidə, interaktiv sərnişin məlumatlandırma sistemləri, mobil cihazlar üçün USB portlar, orijinal işıq qrafikası mövcuddur. Vaqonlar hermetik olduğuna görə səs-küysüzdür və istilik izolyasiyasına malikdir. Əvvəlki nəsil qatarlarla müqayisədə vaqondan-vaqona birbaşa keçidlər sərnişinlərin qatar boyunca hərəkətini təmin edir. Bakıya gətirilmiş 7 qatardan 5-nin yığılaraq komplektləşdirilməsi, sazlanması və sınaq işləri başa çatdırılıb. Daha 2 qatarın xəttə buraxılması noyabrın 8-nə qədər təmin ediləcək.

Dövlət başçısı Bakıda komplektləşdirilən qatarların vaqonlarına baxdı.

Qeyd edildi ki, yeni qatarlar nəzərə alınmaqla, Bakı metropoliteninin vaqon parkında innovasiyalar baxımından sonuncu nəslə mənsub vaqonların ümumi sayı 150-yə çatdırılıb.









# Azərbaycanda karbon emissiyasının azaldılması istiqamətində ciddi addımlar atılır

## Prezident İlham Əliyev Zığ Elektrik Avtobus Parkının fəaliyyəti ilə tanış olub







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 31-də Bakıda Zığ Elektrik Avtobus Parkının fəaliyyəti ilə tanış olub.**

AZƏRTAC xəbər verir ki, dövlət başçısına burada Çin Xalq Respublikasının istehsalı olan elektrik mühərrikli "BYD" markalı avtobus və "TX5" markalı elektrik mühərrikli taksi nəqliyyat vasitələri təqdim edilib.

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Prezident İlham Əliyevə görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Zığ Elektrik Avtobus Parkının ümumi ərazisi 5,4 hektardır. Tutumu 210 elektrik avtobusu olan parkın ərazisində 60 şarj stansiyası mövcuddur.

Hazırda avtobus parkı Çin Xalq Respublikasının istehsalı olan elektrik mühərrikli "BYD" markalı 160 avtobusdan ibarətdir. Dövlət başçısına avtobusların texniki göstəriciləri barədə məlumat verildi.

Diqqətə çatdırıldı ki, 2024-cü il istehsalı olan avtobusların istismar müddəti 15 il, sərnişin tutumu 83 nəfərdir. Nəqliyyat vasitəsinin uzunluğu 12 metrdən bir qədər çox, eni 2 metr yarım, hündürlüyü isə 3 metrdən artıqdır.

Avtobusların fəaliyyətini təmin edəcək 100 şarj cihazı "Luobinsen" şirkətinin istehsalıdır. Cihazların yükləyici gücü 320kW təşkil edir.

*Ardı 3-cü səh.*

RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN



# Azərbaycanda karbon emissiyasının azaldılması istiqamətində ciddi addımlar atılır

## Prezident İlham Əliyev Zığ Elektrik Avtobus Parkının fəaliyyəti ilə tanış olub

*Əvvəli 2-ci səh.*

Şarj cihazları həddindən artıq gərginlik, cərəyan, faza itkisi və digər çoxsaylı mühafizə funksiyalarına malikdir. Cihazlar şəhərin müxtəlif istiqamətlərində yerləşdiriləcək.

Eyni zamanda diqqətə çatdırıldı ki, elektrikmühərrikli "LEVC TX5" markalı plug-in hibrid taksilər İngiltərə növü olub Çin istehsalıdır. "Avro-6" standartlarına uyğun həmin avtomobillərin enerjidoldurma müddəti 30 dəqiqədir. Yalnız elektrik mühərriki ilə 130 kilometr, qoşulmuş benzin generator ilə isə 600 kilometr məsafə qət etmək imkanına malikdir. Avtomobil həmçinin təcili əyləc, təkərlərin təzyiqinə nəzarət təchizatı, yol nişanlarını tanıma kimi müasir təhlükəsizlik sistemləri ilə təchiz olunub.



Avtobus parkında həmçinin təmir mərkəzi, inzibati bina, transformator məntəqəsi, xidmət və texniki sahələr fəaliyyət göstərəcək. Marşrutların Monitorinq Mərkəzi isə avtobusların hərəkət marşrutlarını, qrafiklərini və sərnişin təhlükəsizliyini səmərəli şəkildə izləmək və idarə etmək üçündür. Burada gün ərzində 3 növbədə 24 saat xidmətin təşkil edilməsi və 83 nəfərin işlə təmin olunması nəzərdə tutulur.

Qeyd edək ki, hazırda karbon emissiyasının azaldılması qlobal hədəfə çevrilib. Azərbaycan da bu hədəfə çatmaq üçün prioritetlər müəyyənləşdirib. "Yaşıl texnologiya"lardan istifadə bu istiqamətdə atılan addımlardandır. "Eko bus" layihəsi isə "yaşıl texnologiya"lardan istifadənin genişləndirilməsi məqsədi daşıyır.









# Albaniya hökumətinin beynəlxalq təşkilatlarda mövqeyimizi dəstəkləməsi yüksək qiymətləndirilir

## Prezident İlham Əliyev Albaniyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 31-də Albaniya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Besart Kadianın etimadnaməsini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlət başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlət başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini vurğulayaraq, Azərbaycan və Albaniya prezidentlərinin qarşılıqlı səfərlərinin və Albaniyanın Baş nazirinin ölkəmizə səfərinin əlaqələrimizin möhkəmləndirilməsi işinə töhfə verdiyini bildirdi. Azərbaycan Prezidenti Albaniyanın Baş nazirinin bir neçə gündən sonra COP29-da iştirak edəcəyini də vurğulayaraq, bütün bunların ölkələrimiz arasında yaxın tərəfdaşlıq əlaqələrini nümayiş etdirdiyini dedi. Ölkələrimizin beynəlxalq səviyyədə bir-birini həmişə dəstəklədiyini qeyd edən Prezident İlham Əliyev Azərbaycanın təmsil olunmadığı beynəlxalq təşkilatlarda Albaniya hökumətinin mövqeyimizi dəstəkləməsini yüksək qiymətləndirdi. Səfir Albaniyanın Baş naziri Edi Ramanın salamlarını dövlətimizin başçısına çatdırdı.



Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Albaniyanın Baş nazirinə çatdırmağı xahiş etdi.

Besart Kadia Azərbaycanda səfir kimi fəaliyyətə başlamaqdan məmnunluğunu bildirərək, ölkələrimiz və xalqlarımız arasında dostluğun və mədəni əlaqələrin önəminə toxundu.

Diplomat Albaniyanın Azərbaycanın ərazi bütövlüyünə dəstəyini bir daha ifadə etdi.

COP29 tədbirinin əhəmiyyətini vurğulayan səfir bu cür genişmiqyaslı tədbirlə bağlı Azərbaycanda həyata keçirilən hazırlıq işlərinin dərin təəssürat hissi yaratdığını dedi.

Söhbət zamanı iqtisadi əməkdaşlığımızın enerji, nəqliyyat, ticarət, turizm və digər sahələri əhatə etməsindən məmnunluq ifadə olundu, əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə ümidvarlıq bildirildi.

# Konqo Prezidenti COP29 tədbirində iştirak edəcək

## Prezident İlham Əliyev Konqo Demokratik Respublikasının Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 31-də Konqo Demokratik Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri İvan Vanqu Nqimbinin etimadnaməsini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlət başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlət başçısı ikitərəfli münasibətlərimizə müxtəlif istiqamətlərdə yeni təkan verilməsinin zəruriliyini qeyd edərək, siyasi əlaqələrin yaxşı səviyyəyə çatdığını, ticarət və iqtisadi sahələrdə isə görüləsi çox işlərin olduğunu dedi.

Dövlət başçısı beynəlxalq təşkilatlar, ilk növbədə, BMT və Qoşulmama Hərəkatı çərçivəsində bu günə qədər ölkələrimiz arasında uğurlu əməkdaşlığın həyata keçirildiyini vurğuladı və bunun gələcəkdə də davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi.

Səfir, ilk növbədə, Konqo Demokratik Respublikasının Prezidenti Feliks Çisekedinin salamlarını və Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi ilə bağlı təbriklərini dövlətimizin başçısına çatdırdı.



Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Konqo dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Səfir Azərbaycan ilə Konqo arasında təhsil, bank, maliyyə, mədənçilik, təhlükəsizlik sektorlarında və digər sahələrdə əməkdaşlıq məsələlərinə toxundu.

COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdıran səfir Konqo Demokratik Respublikasının Prezidentinin bu tədbirdə iştirak edəcəyini vurğuladı.

Prezident İlham Əliyev Konqo Prezidentinin COP29 tədbirində iştirak edəcəyindən məmnunluğunu bildirdi.

# Azərbaycan ilə Banqladeş arasında ikitərəfli münasibətlərin inkişaf etdirilməsi zəruridir

## Prezident İlham Əliyev Banqladeşin Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 31-də Banqladeş Xalq Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Amanul Haqın etimadnaməsini qəbul edib.**



AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlət başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlət başçısı Azərbaycan ilə Banqladeş arasında ikitərəfli münasibətlərin inkişaf etdirilməsinin zəruriliyini vurğulayaraq, siyasi əlaqələrimizin, eləcə də iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən ticarət, investisiya və digər istiqamətlərdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu dedi.

Prezident İlham Əliyev beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimizin bir-birini dəstəkləməsinin önəmini qeyd etdi.

Səfir Banqladeş Xalq Respublikasının Prezidenti Məhəmməd Şahabuddinin salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Banqladeş dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Dövlətimizin başçısı əvvəllər Banqladeş Prezidenti ilə təmaslarını xatırlayaraq Məhəmməd Şahabuddinin COP29-da iştirak edəcəyini məmnunluqla vurğuladı, ona fəaliyyətində uğurlar arzuladı. Amanul Haq ikitərəfli münasibətlərlə bağlı xoş sözlərə görə dövlət başçısına minnətdarlığını ifadə etdi.

COP29-un əhəmiyyətinə toxunan səfir bu tədbirdə Prezident səviyyəsində təmsil olunacaqlarından məmnunluqlarını bildirdi.

# Ruanda Prezidenti Azərbaycan ilə əlaqələrə böyük önəm verir

## Prezident İlham Əliyev Ruandanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 31-də Ruanda Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Çarlz Kayonqanın etimadnaməsini qəbul edib.**



AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlət başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlət başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişaf etdirilməsinin, ticarət, investisiya, insanlar arasında əlaqələr və digər sahələrdə əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsinin önəminə toxundu.

Prezident İlham Əliyev BMT, Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlığın bundan sonra da uğurla davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi.

COP29-da Ruanda Prezidentinin iştirak edəcəyindən məmnunluğunu ifadə edən dövlətimizin başçısı bu tədbirin önəminə toxundu, onun iqlim dəyişmələri ilə bağlı qlobal səviyyədə müzakirələrin aparılması baxımından əhəmiyyətini vurğuladı və Azərbaycanın bu sahədə fəal iştirak etdiyini dedi.

Çarlz Kayonqa Ruanda Respublikasının Prezidenti Pol Kaqamenin salamlarını dövlətimizin başçısına çatdırdı və qeyd etdi ki, ölkəsinin Prezidenti COP29-da iştirakını səbirsizliklə gözləyir. Səfir vurğuladı ki, Ruanda Prezidenti ona Azərbaycan ilə əlaqələrə böyük önəm verdiyini deyib və ölkələrimizin bir-birindən uzaqda yerləşməsinə baxmayaraq, əməkdaşlıq üçün yaxşı imkanların olduğunu vurğulayıb.

Prezident İlham Əliyev salamlara və xoş sözlərə görə minnətdarlığını bildirdi, onun da salamlarını Ruanda dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Azərbaycan Prezidentinin ikitərəfli münasibətlərə dair söylədiyi fikirlərə görə minnətdarlığını bildirən səfir əlaqələrimizin genişlənməsi üçün səylərini əsirgəməyəcəyini dedi.

Görüşdə ölkələrimiz arasında iqtisadiyyat, ticarət, humanitar, elm və təhsil sahələrində əməkdaşlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı.

# İspaniya Hökumətinin Sədri zati-aliləri cənab Pedro Sançezə

Hörmətli cənab Sədr,

Valensiya regionunda baş vermiş güclü daşqınlar nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər bizi olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün İspaniya xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyir, təbii fəlakətin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 oktyabr 2024-cü il*

# Azərbaycan Respublikasında kənd təsərrüfatının inkişafında xidmətləri olan bir qrup şəxsin təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında kənd təsərrüfatının inkişafında xidmətləri olan aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Dünyamalıyev Mətləb Məmməd oğlu
Əmirbəyova Jalə Əhməd qızı
Fətullayev İslam Babakişi oğlu
Hüseynov Namiq Tapdıq oğlu
Mahmudov Abdullah İlyas oğlu
Məmmədov Sahib Nizaməddin oğlu
Nəbiyev Feyzulla Sovetxan oğlu
Şəmmədov Elşad Zeynal oğlu

**"Tərəqqi" medalı ilə**

Abbasov İbrahim Yusif oğlu
Ağayev Lətif Xudaş oğlu
Bayramova Gülyanə Fərrux qızı
Dünyamalıyev Sevindik Əbil oğlu
Əhmədov Ağa Balaseyid oğlu
Əsgərov Məhərrəm Əsgər oğlu
Əsgərov Səməddin Calal oğlu
Əzizov Əlisultan Əlheydər oğlu
Fətəliyev Məhəmməd Qoca oğlu
Hacıyev Etiram Qabil oğlu
Hacıyev Mahir Həmzə oğlu
Həsənov Arif Bahadur oğlu
Hüseyinov Həsənağa Allahverdi oğlu
Xəlilov Həmzə Ağakişi oğlu
İsmayılova Səadət Əmir qızı
Qəhrəmanov Canpolad Kamayıl oğlu
Quliyeva Yeganə Arif qızı
Qurbanov Abdulqafur Abdulrəhman oğlu
Məmmədov Anar Vidadi oğlu
Məmmədov Habil Axunbala oğlu
Məmmədov Hafiz İsa oğlu
Məmmədov Nəvai Şahin oğlu
Məmmədova Mətanət Zaman qızı
Səlimov Vüqar Süleyman oğlu
Tağıyev Yaqub İslam oğlu
Talıbov İzzət Ataxan oğlu
Yusifov Mehdi Mehman oğlu
Yusifova Elza Sədi qızı
Zahirov Beydullah İslam oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 oktyabr 2024-cü il*

# Birləşmiş Krallığın dövlət naziri Azərbaycanın bölgədə dayanıqlı sülhün təsis edilməsi üzrə baxışları barədə məlumatlandırılıb

Oktyabrın 31-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Birləşmiş Krallığın Avropa, Şimali Amerika və dənizaşırı ərazilər üzrə dövlət naziri Stiven Dauti arasında telefon danışığı olub.





Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, telefon danışığı zamanı iki ölkə arasında əməkdaşlıq gündəliyi, habelə mövcud regional vəziyyət və Azərbaycan-Ermənistan sülh prosesi müzakirə olunub.

Tərəflər Azərbaycanla Birləşmiş Krallıq arasında xüsusilə energetika, təhsil, qarşılıqlı investisiyalar və digər sahələrdə əməkdaşlıqdan məmnunluq ifadə edərək, iki ölkə arasında son vaxtlar siyasi dialoqun intensivləşməsinin, qarşılıqlı səfərlərin, eləcə də hökumətlərarası əməkdaşlıq komissiyalarının işinin bərpasının yeni sahələr üzrə əməkdaşlığın inkişafına təkan verəcəyini bildiriblər. Nazir Ceyhun Bayramov müqabil tərəfi Azərbaycanın bölgəmizdə dayanıqlı sülhün təsis edilməsi üzrə baxışları, bu istiqamətdə atılan praktik addımlar, habelə Ermənistanla sülh prosesi barədə ətraflı məlumatlandırıb. Azərbaycan tərəfinin təşəbbüskarı olduğu sülh sazişi üzrə danışıqlar prosesində ciddi irəliləyişin olduğu, ümumilikdə layihənin razılaşdırılması üzrə iş aparıldığı, eyni zamanda Ermənistan Konstitusiyasında ölkəmizə qarşı olan ərazi iddialarının prosesdə əsas maneə təşkil etdiyi diqqətə çatdırılıb.

Söhbət zamanı, iki ölkə arasında alternativ enerji sahəsində əməkdaşlığın müxtəlif istiqamətləri, SOCAR və BP arasında günəş enerjisinin istehsalı üzrə aparılan işlər, eləcə də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq məsələləri müzakirə olunub.

Telefon danışığı çərçivəsində həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Fransa bölgədə dayanıqlı və həqiqi sülh quruculuğunda maraqlı olmadığını bir daha nümayiş etdirdi

Diplomatik etiket qaydalarına əməl etməyi bacarmayan Fransanın Ermənistandakı səfiri Olivye Dekotinyinin Ermənistan-Fransa münasibətlərindən daha çox Azərbaycan əleyhinə qarayaxma kampaniyasına köklənməsi ilk növbədə Fransa xarici siyasətinin uğursuzluğunun nəticəsidir.

AZƏRTAC xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Fransanın Ermənistandakı səfiri Olivye Dekotinyinin Ermənistanın "Hetq" media qurumuna müsahibəsində Azərbaycan əleyhinə səsləndirdiyi əsassız iddialar barədə yerli medianın sualına cavab verərkən bildirib.

"Müsahibədə Azərbaycan ərazisində işğala və separatçılığa son qoyan tədbirlərin hədəf alınması, Beynəlxalq Ədalət Məhkəməsinin qərarlarına yanlış istinadlar, Ermənistanın "yarımçıq sülh" fikirlərini dəstəkləyən açıqlamalar və bir sıra digər absurd yanaşmalar ilk növbədə Fransa tərəfinin reallıqları necə təhrif etdiyini, bölgədə dayanıqlı və həqiqi sülh quruculuğunda maraqlı olmadığını bir daha nümayiş etdirir.

Fransanın bölgədə eskalasiyanı davam etdirməyə yönələn davranışları və təxribatları bu ölkənin həm münaqişə, həm də postmünaqişə dövründə güddüyü niyyətin və apardığı siyasətin əsl mahiyyətini sübut edib", - deyə Ayxan Hacızadə bildirib.

# Azərbaycanda demokratiya və parlamentarizmin inkişafında siyasi partiyaların rolu mövzusunda "dəyirmi masa" keçirilib

MDB PA-nın iştirakçısı olan dövlətlərdə Demokratiyanın, parlamentarizmin inkişafının və vətəndaşların seçki hüquqlarına riayət olunmasının monitorinqi Beynəlxalq institutunun (MDB PA DİMBİ) Bakı filialının təşkilatçılığı ilə "Azərbaycan Respublikasında demokratiya və parlamentarizmin inkişafında siyasi partiyaların rolu" mövzusunda "dəyirmi masa" keçirilib.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə Milli Məclisdə təmsil olunan siyasi partiyaların nümayəndələri, dövlət qurumlarının, beynəlxalq parlament təşkilatlarının, qeyri-hökumət təşkilatlarının nümayəndələri, Azərbaycanın bir sıra ali təhsil müəssisələrinin professor-müəllim heyəti və ekspertlər iştirak ediblər.

"Dəyirmi masa"nı açan MDB PA DİMBİ Bakı filialının direktoru Ramin Rzayev tədbirin məqsədi haqqında qısa məlumat verib. O, Prezident İlham Əliyevin uğurlu xarici siyasətində MDB üzvü olan dövlətlərlə, xüsusilə humanitar, mədəniyyət, elm, təhsil, idman, sosial və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi və inkişaf etdirilməsi xəttinin aydın şəkildə izlənildiyini vurğulayıb. Ramin Rzayev Azərbaycan parlamentinin MDB ölkələrinin parlamentləri ilə dostluq münasibətlərinin qurulmasında mühüm rolunu qeyd edib.

Sonra çıxış edən Milli Məclisin deputatları demokratik vətəndaş cəmiyyətinin formalaşmasında siyasi partiyaların rolunu vurğulayıb, siyasi partiyaların bu gün Azərbaycanda demokratiyanın inkişafı və formalaşmasında mühüm tərkib hissələrdən biri olduğunu və məhz bu yolla vətəndaşların ölkədə gedən siyasi proseslərdə demokratik iştirakının təmin edilməsinə töhfə verdiklərini bildiriblər. Qeyd olunub ki, bütün siyasi partiyalar Vətən müharibəsində Prezident İlham Əliyevin və dövlətin siyasətinə dəstək olaraq birləşdilər və eyni mövqedən çıxış etdilər.

MDB Parlamentlərarası Assambleyası Şurası Baş katibinin müavini - Milli Məclisin MDB Parlamentlərarası Assambleyasında səlahiyyətli nümayəndəsi Aydın Cəfərov, MDB PA Şurası Baş katibinin müşaviri Sergey Karavayev mövzu ilə bağlı fikirlərini bildirib, siyasi partiyaların açıq dialoq apara biləcəyi belə bir tədbirin keçirilməsinin əhəmiyyətini qeyd ediblər.

Sonra "dəyirmi masa" iştirakçıları arasında səmimi və ətraflı dialoq aparılıb, "dəyirmi masa" materiallarının yekun sənədində öz əksini tapacaq tövsiyələr və şərhlər verilib.

# Bakının Xətai rayonunda Alim Məmmədov adına körpələr evi-uşaq bağçasının təmirdən sonra açılışı







**Oktyabrın 31-də Bakının Xətai rayonundakı Alim Məmmədov adına körpələr evi-uşaq bağçası təmirdən sonra yenidən istifadəyə verilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və ailə üzvləri bağçada yaradılmış şəraitlə tanış olublar.

Uşaq bağçasının direktoru Liya Məcidova Birinci vitse-prezidentə və ailə üzvlərinə bağçada görülən işlər barədə məlumat verib.

Bildirilib ki, 1958-ci ildə inşa olunan Alim Məmmədov adına körpələr evi-uşaq bağçası ötən müddətdə istismara yararsız vəziyyətə düşdüyünə görə təmirə ehtiyac yaranmışdı. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığına əsasən, körpələr evi-uşaq bağçası müasir tələblər səviyyəsində təmir olunub.

Yüz yerlik körpələr evi-uşaq bağçası zəruri avadanlıq və ləvazimatlarla təmin olunub. Bu məktəbəqədər müəssisədə uşaqlar 5 qrup üzrə təhsil alırlar.

Bağçanın həyətyanı ərazisində abadlıq və yaşıllaşdırma işləri görülüb, uşaqlar üçün oyun meydançası yaradılıb.

Qeyd edək ki, ölkəmizdə uşaqların sosial müdafiəsinin gücləndirilməsinə, onların sağlam və xoşbəxt böyümələrinə xüsusi qayğı göstərilir. Uşaq bağçalarının yenidən qurulması ilə bağlı həyata keçirilən layihələr bu baxımdan mühüm rol oynayır.

Uşaqların təlim-tərbiyəsi Heydər Əliyev Fondunun fəaliyyətinin əsas istiqamətlərindən biridir. Fondun həyata keçirdiyi layihələr məktəbəqədər təlim-tərbiyə müəssisələrinin inkişafına, bu sahədə ciddi keyfiyyət dəyişikliyinə səbəb olub. Gələcəyimiz olan uşaqların sosial rifahının yaxşılaşdırılmasına hesablanan belə tədbirlər ölkəmizdə aparılan siyasətin uğurlu və məntiqi nəticəsidir.





# Birinci vitse-prezident Mehriban Əliyeva Talassemiya Mərkəzində



**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və ailə üzvləri oktyabrın 31-də Talassemiya Mərkəzində olublar.**

AZƏRTAC xəbər verir ki, səhiyyə naziri Teymur Musayev Birinci vitse-prezidentə və ailə üzvlərinə mərkəzdə yaradılan şərait barədə məlumat verdi.

Mehriban Əliyeva tibb müəssisəsindəki transplantologiya şöbəsində, yeni açılan reanimasiya şöbəsində və böyüklər üçün stasionar şöbədə olub, burada müalicə alan uşaqlarla, tibb işçiləri ilə söhbət edib, müalicə prosesinin gedişi ilə maraqlanıb.

Birinci vitse-prezidentə məlumat verildi ki, Talassemiya Mərkəzi bu xəstəliyə düçar olanların müalicəsində mühüm rol oynamaqla yanaşı, həm də xəstələrə və onların ailələrinə mənəvi baxımdan böyük dəstəkdir.

Mehriban Əliyeva Heydər Əliyev Fondunun mərkəzin fəaliyyətinə və ümumiyyətlə, səhiyyəyə daim önəm verdiyini bildirib.

Qeyd edək ki, tibb müəssisəsində görülən işlər, aparılan islahatlar, burada müalicə alan xəstələrin səhhəti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən daim diqqət mərkəzində saxlanılır. Fondun "Talassemiyasız həyat naminə" proqramı çərçivəsində inşa edilən Talassemiya Mərkəzində xəstələrə göstərilən tibbi xidmətin təkmilləşdirilməsi, mərkəzin maddi-texniki bazasının gücləndirilməsi üçün görülən tədbirlər talassemiya xəstəliyinin profilaktikasında əhəmiyyətli rol oynayır.

Xatırladaq ki, 2009-cu ildən istifadəyə verilən Talassemiya Mərkəzi Azərbaycanda ixtisaslaşdırılmış tibb ocağının və qan bankının yaradılmasına, talassemiyadan əziyyət çəkən uşaqların təhlükəsiz və keyfiyyətli qanla təmin olunması üçün könüllü donor xidmətinin inkişaf etdirilməsinə, talassemiyanın yayılmasının qarşısının alınması istiqamətində əhalinin maarifləndirilməsinə və talassemiya ilə mübarizə aparan bir sıra dövlətlərlə əməkdaşlığın genişləndirilməsinə xidmət edir.







# Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan Dövlət Pantomim Teatrında olub

**Oktyabrın 31-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və ailə üzvləri Azərbaycan Dövlət Pantomim Teatrının binasında mövcud vəziyyətlə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, mədəniyyət naziri Adil Kərimli Birinci vitse-prezident Mehriban Əliyevaya və ailə üzvlərinə teatr haqqında məlumat verdi.

Bildirildi ki, respublikamızın tanınmış teatr kollektivlərindən olan Azərbaycan Dövlət Pantomim Teatrı 1994-cü ildə teatr-studiya kimi yaradılıb. Studiya altı il müddətində Gənc Tamaşaçılar Teatrının nəzdində fəaliyyət göstərib. 2000-ci il martın 6-da kollektivə dövlət statusu verilib. 2005-ci ildən isə Azərbaycan Dövlət Pantomim Teatrı keçmiş "Şəfəq" kinoteatrının binasında yerləşdirilib.

Otuz ildən artıq dövrdə Pantomim Teatrında bir çox müəlliflərin əsərləri səhnələşdirilib. Teatrın bu növünün əsas üstünlüklərindən biri onun üçün dil baryerinin olmamasıdır. Ötən müddət ərzində kollektiv Almaniya, Avstriya, Bolqarıstan, İsveçrə, Gürcüstan, Qazaxıstan, Mərakeş, Rusiya və digər ölkələrdə Azərbaycan mədəniyyətini uğurla təmsil edib.









Bu gün Pantomim teatrı ən çox ziyarət olunan və böyük tamaşaçı məhəbbəti qazanan mədəniyyət ocaqlarımızdan biridir.

Qeyd edildi ki, Azərbaycan Dövlət Pantomim Teatrının hazırda yerləşdiyi bina 1900-cü ildə inşa olunub və yerliəhəmiyyətli memarlıq abidələri siyahısındadır.

Mövcud vəziyyətlə tanışlıq zamanı binada görülməli olan zəruri təmir işləri barədə də məlumat verildi.

## Pakistan COP29-da yüksək səviyyədə təmsil olunacaq



Milli Məclisin Sədri Sahibə Qafarova oktyabrın 31-də Pakistan İslam Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Qasim Mohiuddinlə görüşüb.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, S.Qafarova dövlətlərarası münasibətlərin dinamik inkişafından məmnunluğunu ifadə edib, Azərbaycan-Pakistan dostluq və qardaşlıq əlaqələrindən danışıb. Bildirib ki, bu gün ölkələrimiz arasında mövcud olan strateji tərəfdaşlığın səviyyəsi əlaqələrimizin inkişafına geniş imkanlar yaradır.

Milli Məclisin Sədri həm Azərbaycan torpaqlarının 30 illik işğalı dövründə, həm də ərazi bütövlüyümüzün təmin olunması zamanı ölkəmizə beynəlxalq arenada verdiyi daimi dəstəyə görə Pakistana və onun parlamentinə təşəkkürünü bildirib. O, Azərbaycanın da həmişə Pakistanın yanında olduğunu və Kəşmir probleminin BMT-nin qəbul etdiyi qətnamələr əsasında həllini dəstəklədiyini bir daha diqqətə çatdırıb.

Söhbət zamanı ikitərəfli münasibətlərin inkişafında parlamentlərarası əlaqələrin rolu yüksək qiymətləndirilib, parlament rəhbərlərinin qarşılıqlı rəsmi və işgüzar səfərlərinin, müntəzəm təmaslarının, eləcə də deputatlarımızın beynəlxalq parlament qurumları çərçivəsində əməkdaşlığının əhəmiyyəti vurğulanıb.

Görüşdə Azərbaycanda keçiriləcək COP29-a hazırlıq işləri barədə də danışılıb. S.Qafarova COP-29 ətrafında gedən çirkin siyasi oyunları qəbuledilməz adlandırıb, bu tədbirin ümumbəşəri əhəmiyyət daşıdığını diqqətə çatdırıb. Qonağa Milli Məclisin Parlamentlərarası İttifaqla birlikdə COP-29 çərçivəsində keçirəcəyi Parlament konfransı barədə də məlumat verilib, tədbirin parlamentarilər üçün iqlim dəyişikliyi ilə mübarizədə fikir mübadiləsi aparmaq məqsədilə əhəmiyyətli platforma olduğu bildirilib.

Səfir Qasim Mohiuddin Azərbaycan-Pakistan münasibətlərinin tarixi köklərə və qardaşlıq əlaqələrinə söykəndiyini, bu münasibətlərin bundan sonra da davam edəcəyini bildirib. Diplomat deyib ki, Pakistan COP29-da iştirak edəcəyini dərhal təsdiqləyən ölkələrdəndir və Azərbaycanın bu tədbiri yüksək səviyyədə, uğurla keçirəcəyinə əmindir.

O həmçinin diqqətə çatdırıb ki, Azərbaycanın mövqeyi həmişə ədalətə, beynəlxalq hüququn norma və prinsiplərinə, BMT TŞ-nin qətnamələrinə əsaslanıb və Pakistan həmişə Azərbaycanın yanında olduğunu bildirib. Eyni zamanda Azərbaycanın Kəşmir məsələsində Pakistana göstərdiyi dəstəyin onlar üçün böyük əhəmiyyət daşıdığını vurğulayıb.

Ölkəmizin iqlim dəyişiklikləri kimi qlobal problemlərin həlli istiqamətindəki səylərini yüksək qiymətləndirən səfir COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırıb, Pakistanın tədbirdə yüksək səviyyədə təmsil olunacağını deyib, bu görüşün iqlim dəyişikliyi ilə bağlı qlobal müzakirələri gücləndirəcəyinə inandığını ifadə edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

## "COP29 iqlim dəyişikliyi ilə bağlı qlobal əməkdaşlığın gücləndirilməsinə mühüm töhfə verəcək"

Milli Məclisin Sədri Sahibə Qafarova oktyabrın 31-də Çex Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Milan Sedlaçeklə görüşüb.



Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə ölkələrimiz arasında ikitərəfli əməkdaşlıq əlaqələrinin siyasi, iqtisadi və humanitar aspektləri müzakirə edilib, ikitərəfli münasibətlərin inkişafında qarşılıqlı səfərlərin, o cümlədən parlament sədrləri və dostluq qrupları səviyyəsində təmasların əhəmiyyəti vurğulanıb. Sahibə Qafarova parlamentlərarası əlaqələrin dövlətlərarası münasibətlərin inkişafında mühüm rolunu qeyd edərək, altıncı çağırış Milli Məclis dövründə Çex parlamenti ilə əməkdaşlığın genişlənməsinə xüsusi diqqət yetirildiyini vurğulayıb. O, VII çağırış dövründə də bu əməkdaşlığın davam etdiriləcəyinə inamını ifadə edib, parlamentlərin dostluq qrupları, həmçinin profil komitələri arasında əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğulayıb. Deputatlarımızın beynəlxalq təşkilatlar çərçivəsində birgə fəaliyyətinin və qarşılıqlı dəstəyinin mühüm olduğunu deyən Milli Məclisin sədri parlamentlərarası əlaqələrdə obyektiv məlumatların paylaşılması baxımından qarşılıqlı məlumatlandırmanın genişləndirilməsinin əhəmiyyətini diqqətə çatdırıb.

COP29-a hazırlıq prosesindən söz açan Sahibə Qafarova deyib ki, bu konfransın qlobal bir problemə və həmrəylik tələb edən bir məsələyə həsr olunduğunu nəzərə alaraq, tədbirin siyasiləşdirilməsi cəhdləri yolverilməzdir. Bildirilib ki, Milli Məclis Parlamentlərarası İttifaqla birlikdə COP-29 çərçivəsində tədbirə qatılacaq parlamentarilərə iqlim dəyişikliyi ilə mübarizədə geniş fikir mübadiləsi aparmaq və birgə mövqedən çıxış etmək imkanı yaradacaq Parlament toplantısı keçirməyi planlaşdırır. Səfir Milan Sedlaçek ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən qanunverici orqanlar arasında əməkdaşlıqdan məmnun olduğunu, bu əlaqələrin davam etdiriləcəyinə əminliyini bildirib. COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdıran səfir Çexiyanın bu tədbirdə yüksək səviyyədə təmsil olunacağını, bu tədbirin iqlim dəyişikliyi ilə bağlı qlobal əməkdaşlığın gücləndirilməsinə mühüm töhfə verəcəyini bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

## COP29 ilə əlaqədar Təşkilat Komitəsinin səkkizinci iclası keçirilib






Oktyabrın 31-də, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin 8-ci iclası olub.

AZƏRTAC xəbər verir ki, Prezident Administrasiyasının rəhbəri, Təşkilat Komitəsinin sədri Samir Nuriyev artıq COP29-a sayılı günlərin qaldığını qeyd edərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıqlarına uyğun olaraq sonuncu iclasdan ötən dövr ərzində COP29-a ciddi hazırlıq prosesinin daha da sürətləndirildiyini və yekunlaşmaqda olduğunu vurğulayıb. Samir Nuriyev Prezident İlham Əliyevin oktyabrın 17-də Bakı Olimpiya Stadionunda aparılan genişmiqyaslı hazırlıq işləri ilə növbəti dəfə tanış olaraq tapşırıq və göstərişlər verdiyini nəzərə çatdırıb.

Təşkilat Komitəsinin sədri Azərbaycana və Prezident İlham Əliyevə hörmətin bariz nümunəsi olaraq COP29 Liderlər Sammitində 100-dən artıq dövlət və hökumət başçısının, vitse-prezidentlərin iştirakının gözlənildiyini bildirib.

Samir Nuriyev əlavə edib ki, COP29-da iştirak üçün BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Katibliyi vasitəsilə 50 mindən artıq şəxs qeydiyyatdan keçib və bu proses davam etdiyi üçün say daha da artacaq.

Təşkilat Komitəsinin sədri bildirib ki, Prezident İlham Əliyev oktyabrın 10-11-də Bakıda keçirilmiş Pre-COP29 tədbirinə ünvanladığı müraciətində COP29-da yeni iqlim maliyyəsi hədəfi ilə bağlı razılaşmaya nail olunmasının vacibliyini vurğulayaraq, "Bakı Sazişi"nin əldə edilməsinin beynəlxalq ictimaiyyətin ümumi nailiyyəti kimi tarixə düşəcəyinə inamını ifadə edib. Bu xüsusda, Samir Nuriyev deyib ki, Azərbaycan tərəfinin xarici tərəfdaşlarla təmasları zamanı COP29-da uğurlu nəticələrin əldə edilməsi imkanlarının daha da artdığı aydın hiss olunur.

Prezident Administrasiyasının rəhbəri COP29 zamanı Bakıda nəqliyyatın planlı şəkildə təşkil olunması ilə bağlı hazırlanmış Nəqliyyat Planının icrasının təmin edilməsinin vacibliyini vurğulayıb.

Samir Nuriyev, eyni zamanda Bakı Olimpiya Stadionunda yekunlaşmaqda olan hazırlıq işləri, dövlət qurumları tərəfindən beynəlxalq tərəfdaşlarla birlikdə təşkil ediləcək tədbirlər və digər məsələlər barədə danışıb.

Təşkilat Komitəsinin sədri xarici medianın və qeyri-hökumət təşkilatlarının da COP29-da iştiraka böyük maraq göstərdiyini bildirib.

Ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən edilmiş Prezidenti Muxtar Babayev Beynəlxalq Valyuta Fondu və Dünya Bankı Qrupunun illik sessiyası və hazırda Kolumbiyada işini davam etdirən BMT-nin "Bioloji Müxtəliflik haqqında" Konvensiyasına Tərəflərin Konfransı da daxil olmaqla, COP29-la bağlı ümumi gedişat barədə danışıb.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev media-kommunikasiya sahəsində həyata keçirilən fəaliyyət və vətəndaş cəmiyyətinin COP29-a töhfəsi ilə bağlı çıxış edib.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov Bakı Olimpiya Stadionunda görülən işlər, paytaxtda keçirilən nəqliyyat monitorinqləri və digər təşkilati-logistika məsələləri barədə danışıb.

Xarici işlər naziri Ceyhun Bayramov COP29 zamanı qəbul edilməsi nəzərdə tutulan mühüm sənədlər, xüsusilə yeni iqlim maliyyəsi hədəfi ətrafında son vəziyyət barədə çıxış edib.

Energetika naziri Pərviz Şahbazov Azərbaycanda "yaşıl enerji" sahəsində həyata keçirilən işlər, Energetika Nazirliyinin xətti ilə COP29 zamanı təşkil edilməsi nəzərdə tutulan tədbirlər barədə danışıb.

Milli Məclisin deputatı, COP29-un İqlim dəyişmələri üzrə yüksək səviyyəli çempionu Nigar Arpadarai Bakı İqlim Həftəsi və keçirilən digər tədbirlərlə bağlı məlumat verib.

Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov COP29-un təşkili prosesində miqrasiya idarəçiliyi barədə danışıb.

Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi İlqar Musayev COP29 zamanı informasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində aparılan işlər barədə məlumat verib.

COP29-un Gənc iqlim çempionu Leyla Həsənova gənclərin iqlim fəaliyyətində iştirakı sahəsində görülən işlər barədə danışıb.

İclasda Bakı Olimpiya Stadionunda hazırlıq işlərinin son vəziyyətini əks etdirən videoçarx nümayiş etdirilib.

İclasın sonunda Təşkilat Komitəsinin sədri Samir Nuriyev Azərbaycanın COP29-da Prezident İlham Əliyevin rəhbərliyi ilə növbəti tarixi uğuruna imza atacağına əminliyini ifadə edib, COP29 Tədbirlər Planının icrasının davam etdirilməsi və digər aidiyyəti məsələlər üzrə tapşırıqlar verib.

# Milli Məclisin komitə iclaslarında

Oktyabrın 31-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin videokonfrans formatında iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, komitənin sədri Əli Hüseynli gündəliyə 4 məsələnin daxil edildiyini bildirib.

Əvvəlcə müzakirəyə "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsi birinci oxunuşda təqdim olunub. İclasda iştirak edən Dövlət Miqrasiya Xidmətinin Miqrasiya siyasəti və hüquqi təminat baş idarəsinin rəisi Vahid Qəhrəmanov bildirib ki, layihə qanunsuz miqrantların saxlanılması mərkəzlərində əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin yerləşdirilməsi və saxlanılması qaydalarının təkmilləşdirilməsi, onların hüquq və mənafelərinin təmin edilməsi məqsədilə hazırlanıb. Sənəddə məcəlləyə 82.4-82.8-ci maddələrin əlavə edilməsi təklif olunur. Həmin maddələrdə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin qanunsuz miqrantların saxlanılması mərkəzlərində qalmaq müddətinin hesablanması, onların bu mərkəzlərdə yerləşdirilməsi müddətinin uzadılması, yaxud azad edilməsi haqqında qərarın icra edilməsi qaydaları və qanunsuz miqrantların saxlanılması mərkəzlərinin rəisi tərəfindən həmin mərkəzlərdə məcburi yerləşdirilmiş əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin azad edilməsi halları təsbit edilir.

Bununla yanaşı, məcəlləyə 88-1 - 88-11-ci və 89-1-ci maddələrin əlavə olunması nəzərdə tutulur. Bu əlavələrə əsasən, qanunsuz miqrantların saxlanılması mərkəzlərində saxlanılan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və azadlıqlarının həyata keçirilməsi məqsədilə həmin şəxslərin şəxsi təhlükəsizlik hüququ, yazışmaları, müraciətlərinin göndərilməsi, digər şəxslərlə əlaqələri, maddi-məişət və tibbi-sanitariya təminatları, dini ayinlərin yerinə yetirilməsi, dini ləvazimatdan və ədəbiyyatdan istifadə edilməsi, bağlama, sovqat, pul baratlarının alınması və ya göndərilməsi, mülki hüquq və ailə münasibətlərində iştirakı, həmin şəxslərə tətbiq edilən həvəsləndirmə tədbirləri və digər məsələlərlə bağlı tənzimləmələr öz əksini tapıb.

Sonra komitənin üzvü Bəhruz Məhərrəmov növbəti məsələ - "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsinin mahiyyəti barədə danışıb. Bildirilib ki, layihədə qanunun yeni redaksiyada təqdim edilmiş və məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda şikayətə baxılma qaydası təsbit edilən 9-cu maddəsində məişət zorakılığı ilə bağlı daxil olan müraciətlərə baxılma proseduru daha ətraflı şəkildə təsbit olunur. Sənəddə məişət zorakılığı ilə bağlı şikayətə baxılma müddəti, şikayətə baxmalı olan orqan, şikayətə baxılan zaman dəvət olunmalı şəxslərin əhatə dairəsi, o cümlədən vəkil, psixoloq və tərcüməçilərin xidmətindən istifadə, həmçinin yetkinlik yaşına çatmayan və ya əlilliyi olan şəxslərin dindirilməsi zamanı psixoloq və pedaqoqların iştirakının təmin olunması, eyni zamanda məişət zorakılığı barədə şikayətlərə baxılmanın nəticələrinə dair yekunda qəbul olunan qərarlar ehtiva edilir.

Müzakirələrdə komitə üzvü Əminə Ağazadə, parlament Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdir müavini Səməd Sultanov məsələ ilə bağlı öz fikir və qeydlərini söyləyiblər.

Sonra gündəliyin digər 2 məsələsi - "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) və "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" (üçüncü oxunuş) qanun layihələri nəzərdən keçirilib. Komitə sədri Əli Hüseynli bu iki sənədə dair birinci və ikinci oxunuşlar zamanı heç bir əlavə qeyd və təklifin olmadığını bildirib.

Onlayn iclasda təqdim edilən qanun layihələrinin hər biri Milli Məclisin plenar iclasına tövsiyə olunub.

❖ ❖ ❖

Oktyabrın 31-də Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin növbəti iclası keçirilib.

Komitə sədri Arzu Nağıyev gündəlikdəki beş məsələ barədə məlumat verib.

O, gündəliyin birinci məsələsi olan "Minatəmizləmə fəaliyyəti haqqında" qanun layihəsinin (ikinci oxunuş) birinci oxunuş zamanı geniş müzakirələrdən keçdiyini qeyd edərək, müzakirələrdə qaldırılan məsələlərə izahat verib və münasibətini bildirib. Komitə sədri qanun layihəsinin humanitar minatəmizləmə fəaliyyətinə aid olduğunu, onun hərbi əməliyyatlar başa çatdıqdan sonra mülki əhalinin təhlükəsizliyinin təmin edilməsi üçün həyata keçirildiyini vurğulayıb.

Bildirilib ki, gündəliyin ikinci məsələsi olan "Yol hərəkəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) də "Minatəmizləmə fəaliyyəti haqqında" qanun layihəsinin 7-ci maddəsində nəzərdə tutulan müddəadan irəli gələrək uyğunlaşdırma məqsədilə hazırlanıb.

Arzu Nağıyev Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında" Əsasnamədə dəyişiklik edilməsi barədə qanun layihəsində (ikinci oxunuş) hərbi xidmətin təkmilləşdirilməsi və hərbi qulluqçuların ehtiyata və ya istefaya buraxılma prosedurlarının daha səmərəli qaydada həyata keçirilməsinin nəzərdə tutulduğunu söyləyib.

Növbəti məsələnin - "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinin (üçüncü oxunuş) isə müvafiq icra hakimiyyəti orqanında həqiqi hərbi xidmətdən ehtiyata buraxılmış və həmin orqanın ehtiyatına keçirilmiş birinci dərəcəli ehtiyatda olan hərbi vəzifəlilərin hərbi təlim toplanışlarına çağırılması ilə bağlı olduğu bildirilib.

Diqqətə çatdırılıb ki, sonuncu məsələ olan "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsində (üçüncü oxunuş) isə Azərbaycan Ordusunun və başqa silahlı birləşmələrin müvafiq vasitələrlə təmin edilməsi üçün ümumi qaydalar müəyyən olunub.

Qanun layihələri müzakirə edilərək baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

*"Azərbaycan"*

**İkiəsrlik münaqişəyə və 30 illik müharibəyə son qoyan böyük Zəfərin 4-cü ildönümünü artıq ərazi bütövlüyünün və suverenliyin tam təmininin bəxş etdiyi qürur hissi ilə qeyd edirik. Müzəffər Ali Baş Komandanın, Azərbaycan Silahlı Qüvvələrinin və xalqımızın vahid ümummilli hədəfi ətrafında səfərbər olmaqla birgə qazanılan bu qələbə tarixi ədaləti bərpa etdiyi kimi, dövlətimizin qüdrətini də nümayiş etdirdi.**

**Bu zəfər eyni zamanda Silahlı Qüvvələrimizin, habelə Daxili İşlər Nazirliyinin şəxsi heyətinin Vətən, xalq və Prezident qarşısında vəzifə və öhdəliklərinin layiqli icra hesabatı oldu.**



# Murovdan Xankəndiyədək Zəfər yolu

## Daxili İşlər Nazirliyinin əməkdaşları Vətən müharibəsində və antiterror tədbirlərində vəzifə borclarını şərəflə və qəhrəmanlıqla icra etdilər
























### Qarabağ uğrunda ön cəbhədə

2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatı nəticəsində Murov istiqamətindən başlayan hərbi əməliyyatların 2023-cü ilin 20 sentyabrında Qələbə bayrağımızın Xankəndidə ucalmasınadək davam edən şanlı Zəfər yürüşündə Daxili İşlər Nazirliyinin əməkdaşları və hərbi qulluqçuları da böyük şücaət, fədakarlıq nümunələri göstərdilər, qanları və canları hesabına Qarabağın tam azadlığına nail oldular.

Unutmayaq ki, onlar paytaxtımızın Azadlıq meydanında, ardınca da Xankəndidə keçirilmiş qələbə paradlarında Müzəffər Ali Baş Komandana Qələbə raportunu verən, həmçinin ötən əsrin sonlarından etibarən torpaqlarımızın bütövlüyü uğrunda başlayan savaşın ilk qəhrəmanlarından idilər.

Bu mübariz qurumun cəsurluq, mərdlik kimi qətiyyətli prinsiplər əsasında formalaşmasının nəticəsi idi ki, 1988-ci ildə müasir silah və texnika ilə təchiz edilmiş erməni hərbi birləşmələrinə qarşı Vətənin müdafiəsinə ilk olaraq qalxan, milli müqavimətin önündə dayanan və uzun müddət rəşadətlə vuruşan yeganə nizami qüvvə məhz Daxili İşlər Nazirliyinin şəxsi heyəti oldu.

Vətən savaşında 1695 əməkdaşı və hərbi qulluqçusu şəhidlik zirvəsinə ucaldı, 1710 nəfər isə yaralandı. Göstərdikləri şücaət və igidliklərə görə 67 nəfər "Milli Qəhrəman" adına, 1143 nəfər orden və medallara layiq görüldü. Bu rəqəmlər yalnız statistika deyil, əslində, polisin və Daxili Qoşunların qürur, şərəf salnaməsinin ən parlaq səhifələrindən biridir.

Daxili işlər orqanları I Qarabağ savaşında yarımçıq qalmış missiyanı II Qarabağ müharibəsində Zəfərlə yekunlaşdırdı, Ali Baş Komandanın "İrəli!" əmrini 44 gün ərzində layiqincə icra etdi.

Cəbhənin bütün istiqamətlərində, ən ağır döyüşlərdə, ən çətin əməliyyatlarda, o cümlədən Şuşanın azad edilməsində iştirak edərək, yüksək peşəkarlıqları və böyük vətənpərvərlikləri ilə qəhrəmanlıq örnəkləri yaratdılar, düşmənə qarşı cəsarətlə vuruşaraq, torpaqlarımızın azad olunması üzrə döyüş tapşırıqlarını tam həcmdə yerinə yetirdilər.

Vətən müharibəsi dövründə Daxili İşlər Nazirliyinin tibbi və maddi-texniki təminat xidmətlərinin hərbi qulluqçuları da döyüş bölgəsinə ezam olundular, öz sahələri üzrə qarşıya qoyulan vəzifələrin öhdəsindən bacarıqla gəldilər. Səfərbərliyə cəlb edilənlər sırasında ehtiyatda olan hərbi qulluqçular da vardı. Övladları və yaxın qohumları döyüşlərdə həlak olmuş, habelə qazi olan veteranlar da yetərincə idi.

II Qarabağ savaşında Qoşunların 66 hərbi qulluqçusu şəhidlik zirvəsinə ucaldı, 346 nəfər yaralandı. Ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və döyüş tapşırığını yerinə yetirərkən göstərdikləri qəhrəmanlıqlara görə 4 nəfər "Vətən Müharibəsi Qəhrəmanı" adı, 39 nəfər "Zəfər", "Qarabağ", "Azərbaycan bayrağı" və "Rəşadət" ordenləri ilə, daha 1833 nəfər müxtəlif medallarla təltif olundu.

Vətən müharibəsindən sonra həyata keçirilən hərbi əməliyyatlar, ən nəhayət, antiterror tədbirləri daxili işlər orqanlarının döyüş tarixinin növbəti şərəfli səhifəsi oldu. Ötən ilin 19-20 sentyabrında Daxili İşlər Nazirliyinin şəxsi heyətinin də iştirak etdiyi antiterror tədbirlərində 24 saatdan da az bir müddətdə Azərbaycan Respublikasında separatizm birdəfəlik məhv edildi.

Bu əməliyyatda da yüksək peşəkarlığa və döyüş hazırlığına malik olduqlarını nümayiş etdirən əməkdaşlar və hərbi qulluqçular yeni qəhrəmanlıq dastanı yazdılar. 20 nəfər şəhidlik zirvəsinə ucaldı, 24 nəfər isə yaralandı. Antiterror tədbirləri zamanı mərdlik və şücaət göstərdiklərinə görə şəxsi heyətdən 14 nəfər 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, 12 nəfər "Vətən uğrunda", 24 nəfər "İgidliyə görə" və 64 nəfər "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.

### Bütövləşən Azərbaycanın asayişinin etibarlı mühafizləri

Bu gün daxili işlər orqanlarının əməkdaşları Xankəndidə, Xocalıda, Şuşada, Ağdamda, Füzulidə, Cəbrayılda, Laçında, Kəlbəcərdə, Zəngilanda, Qubadlıda, Xocavənddə, Ağdərədə müqəddəs vəzifə borclarını şərəflə, məsuliyyətlə yerinə yetirirlər. Bütövləşən Azərbaycanın asayişinin etibarlı mühafizçisi missiyasını indi daha böyük nailiyyətlərin və fəaliyyətdə davam edən uğurların işığında həyata keçirirlər.

Qarşıda duran əsas milli vəzifə işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və həmin ərazilərə Böyük Qayıdışın təmin edilməsi olmaqla bu proseslə bağlı həyata keçiriləcək bütün işlər Prezident İlham Əliyevin 2022-ci il 16 noyabr tarixdə təsdiq etdiyi "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda öz əksini tapıb və bu konseptual sənədin uğurlu icrasında respublikamızın hüquq-mühafizə orqanlarının, o cümlədən Daxili Işlər Nazirliyinin üzərinə böyük məsuliyyət düşür.

Vətənə xidmət missiyası işğaldan azad edilmiş ərazilərdə təhlükəsizliyin təmin olunması sahəsində də davam edir. Xatırladaq ki, hələ dörd il öncə Prezidentin sərəncamı ilə Azərbaycanda hərbi vəziyyətin elan olunması ilə əlaqədar 22 şəhər və rayonda komendant saatı tətbiq edilmişdi.

2020-ci il sentyabrın 28-dən dekabrın 12-dək qüvvədə olan komendant saatı dövründə daxili işlər orqanları yalnız hərbi vəziyyət rejiminin tətbiq edildiyi inzibati ərazi vahidlərində deyil, ümumən respublika üzrə səfərbər oldular.

Ermənistan təslimçilik aktını imzalamamış və savaş bitməmiş Prezident böyük müdriklik və uzaqgörənliklə "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" fərman imzaladı. 2020-ci il 29 oktyabr tarixli həmin fərmana əsasən, işğaldan azad olunmuş ərazilərdə hər rayon üzrə xüsusi idarəetməni həyata keçirən müvəqqəti komendantlıqların yaradılması qərara alındı və yüksək etimad göstərilərək onların fəaliyyətinin təşkili Daxili İşlər Nazirliyinə həvalə edildi.

Fərman imzalandıqdan dərhal sonra bütün ərazilər üzrə komendantlıqlar yaradıldı, müvəqqəti komendantlar təyin olundu. Daxili İşlər Nazirliyinin və digər dövlət strukturlarının təmsilçilərinin iştirakı ilə ərazi komendantlıqları işğaldan azad olunmuş ərazilərdə giriş-çıxışın xüsusi rejiminin tətbiqindən başlayaraq bütün istiqamətlər üzrə mühüm vəzifələrin icrasına başladı.

Nəzərə alaq ki, bu bölgədə təhlükəsizlik tədbirləri görülmədən bərpa-yenidənqurma işlərinin aparılması, dinc həyatın bərqərar edilməsi, vətəndaşlarımızın məskunlaşması mümkün olmazdı. Daxili İşlər Nazirliyinin şəxsi heyəti işğaldan azad olunmuş Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcər, Xocavənd, Xocalı, Ağdərə rayonlarının, eləcə də Şuşa və Xankəndi şəhərlərinin ərazilərində ictimai qaydanın və ictimai təhlükəsizliyin qorunması, həyat təminatlı mühüm əhəmiyyətli obyektlərin mühafizəsi, terror, təxribat və digər qanunazidd fəaliyyətin qarşısının alınması, giriş-çıxışın xüsusi rejiminin tətbiqi üzrə xidməti tapşırıqları bu gün də yerinə yetirir, o cümlədən öz yurdlarına dönən keçmiş məcburi köçkünlərin təhlükəsizliyi təmin edilir.

### Vətənin keşiyində

Daxili İşlər Nazirliyinin şəxsi heyətinin işğaldan azad edilmiş ərazilərdə xidməti-döyüş fəaliyyəti çoxşaxəli olmaqla yüksək peşəkarlıq, qətiyyət və əzmkarlıq tələb edir. Ötən dövrdə çoxsaylı silah-sursat və partlayıcı maddələrin aşkarlanması da əməkdaşların sayıqlığını göstərir.

Bu ərazilərdə nazirliyin yerli şöbələrinin fəaliyyəti təşkil olunub, eləcə də əməkdaşları və hərbi qulluqçuları öz xidməti vəzifələrini və qarşıya qoyulan tapşırıqları layiqincə yerinə yetirir, Ali Baş Komandanın etimadını ləyaqətlə doğruldur və nəticə etibarı ilə Qarabağda və Şərqi Zəngəzurda təhlükəsizlik tam təmin olunur.

Müzəffər Ali Baş Komandanın "Qarabağa, tarixi torpaqlarımıza onun sahibləri, biz qayıtmışıq. Bu torpaqlardan bir də heç vaxt çıxmayacağıq" bəyanatı daxili işlər orqanlarının əməkdaşları üçün bu bölgədə xidmətin əsas məramı, məqsədi və hədəfidir. Ümumiyyətlə, Qarabağ və Şərqi Zəngəzurda xidməti fəaliyyət Azərbaycan Daxili İşlər Nazirliyinin şərəf salnaməsidir.

Əlbəttə, Vətən müharibəsində qazanılan qələbə daxili işlər orqanları qarşısında müasir dövrün təhdid və çağırışlarından irəli gələn vəzifələr və məsuliyyətlər müəyyənləşdirdi. Böyük Zəfərin reallıqları şəxsi heyətin fəaliyyətinin təkmilləşməsində həm də yeni inkişaf mərhələsinin əsasını qoydu və bu əsaslar üzərində şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksək səviyyədə qorunub saxlanılmasını, peşəkarlığının artırılmasını təmin edəcək növbəti islahatlar dövrü başladı.

Ali Baş Komandan İlham Əliyev polisin və Daxili Qoşunların xidməti və döyüş hazırlığının yüksəldilməsini daim nəzarətdə saxlayıb, müasir silah və texnika ilə təminatı, şəxsi heyətin sosial müdafiəsinin gücləndirilməsi sahəsində vacib qərarlar qəbul edib. Bütün bunlar Daxili İşlər Nazirliyinin qarşıya qoyulan xidməti-döyüş tapşırıqlarını tam və yüksək səviyyədə yerinə yetirməyə qadir dövlət orqanı kimi formalaşmasını təmin edib, şəxsi heyətinin peşəkarlığını, o cümlədən xidməti hazırlığını daha da artırıb.

Mərhələlərlə və ardıcıllıqla həyata keçirilən hərtərəfli quruculuq işləri sayəsində Daxili İşlər Nazirliyi dövlətimizin etibarlı dayaqlarından birinə çevrilib.

Dövlət himayəsi özünü döyüş qabiliyyətinin yüksəldilməsi ilə yanaşı, yeni xidmət obyektlərinin, həmçinin hərbi hissələrin və hərbi şəhərciklərin ərsəyə gəlməsində daha aydın göstərib və Prezident İlham Əliyevin son illər Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Bakı şəhərində, Ağstafa və Ağcabədi rayonlarında yeni inşa olunmuş hərbi şəhərciklərinin açılışlarında iştirakı sözsüz ki, yüksək diqqətin və qayğının bariz nümunəsidir.

Müzəffər Ali Baş Komandan şəxsi heyətin döyüş hazırlığı ilə yanaşı, sosial-məişət şəraiti ilə də yaxından tanış olur, onların maddi-texniki təminatı ilə maraqlanır və hər bir səfəri yeni sosial, xidmət obyektinin açılışı ilə əlamətdar olur.

Dövlət başçısının daxili işlər orqanlarına, onun maddi-texniki bazasının möhkəmləndirilməsinə, şəxsi heyətinin sosial müdafiəsinin gücləndirilməsinə, infrastrukturunun yenilənməsinə göstərdiyi ali diqqət, fəaliyyətinə verdiyi böyük dəyər və etimadı şəxsi heyət tərəfindən minnətdarlıqla qarşılanır.

### Dövlətə dayaq, vətəndaşa dost, təhlükəyə düşmən

Birinci Qarabağ müharibəsində, Vətən savaşında və antiterror tədbirində şəhid olan əməkdaşlar daim böyük ehtiramla anılır. Onların şanlı irsi yaşadılmaqla yanaşı, ailələri və doğmaları da daim Daxili İşlər Nazirliyinin himayəsindədir. Döyüşlərdə yaralanmış əməkdaşlar və hərbi qulluqçular eyni qayğı və diqqətlə əhatə olunublar. Bu mənada polis orqanlarında xidmət keçmək arzusunda olan şəhid övladlarına və Vətən savaşında iştirak etmiş gənclərə lazımi şərait yaradılır. Fiziki hazırlığının vəziyyəti, ümumi bilik səviyyəsi və dünyagörüşü müvafiq tələblərə cavab verən yüzlərlə gənc xidmətə qəbul edilib.

Nazirliyin şəxsi heyətinin ön cəbhəylə yanaşı, arxa cəbhədə də şərəfli xidməti dövlətimiz və xalqımız tərəfindən yüksək qiymətləndirilib. Koronavirus pandemiyası dövründə bu strukturun əməkdaşları böyük fədakarlıqları və əzmkarlıqları, yüksək səviyyədə fəaliyyətləri ilə seçildilər, əhalinin sağlamlığının qorunması üçün gecəli-gündüzlü xidmət apararaq ön sırada addımladılar.

Ümumən polisin və Daxili Qoşunların keçdiyi yol bir daha sübut edir ki, bu qurumların şəxsi heyəti həmişə xalqın əmin-amanlığının, daxili sabitliyin sadiq keşikçisi olub, o cümlədən respublikamızın ərazi bütövlüyünün müdafiəsində və bərpasında fəal iştirak edib və indi də yüksək peşəkarlığı ilə seçilərək dövlət əhəmiyyətli, mürəkkəb xidməti-döyüş tapşırıqlarının öhdəsindən cəsarətlə gəlir.

Asayişin, daxili təhlükəsizliyin keşiyində əzm və qətiyyətlə dayanır, respublikamızın inkişafı və qüdrətlənməsi naminə öz mühüm funksiyalarını layiqincə həyata keçirməyə çalışır, Vətənə, xalqa, Ulu Öndərin irsinə, möhtərəm Prezidentin siyasətinə sədaqət andını bir an belə unutmur.

*Ərazi bütövlüyünün və milli suverenliyin etibarlı dayaqlarından olan daxili işlər orqanları bu gün Qarabağ və Şərqi Zəngəzurda təhlükəsizliyin, sabitliyin və konstitusion hüquqların layiqli keşiyindədir və bu qurumun hər bir əməkdaşı Müzəffər Sərkərdəmizin qazandığı Zəfərin müstəqilliyimiz kimi əbədi olması naminə qətiyyətlə, fədakarlıqla xidmət edir.*

**İxtiyar HÜSEYNLİ,**
***"Azərbaycan"***

◆ Şərqi Zəngəzurdan reportaj



**Dağların qoynunda yerləşən Laçın şəhərindəyik...**

**2025-ci ildə MDB-nin mədəniyyət paytaxtı statusuna sahiblənəcək, Azərbaycanın mədəniyyət incisi sayılan Laçın şəhərində artıq bu istiqamətdə hazırlıqlara başlanılıb. Yeni siması ilə göz oxşayan qədim şəhərimizdə müxtəlif mədəni layihələrin icrası da nəzərdə tutulur ki, bunlar gələn il Laçına təşrif buyuracaq yerli və əcnəbi qonaqlarda çox maraqlı və yaddaqalan təəssüratlar formalaşdıracaq.**

**Hazırda Laçında bir neçə mədəniyyət infrastrukturu obyekti fəaliyyət göstərir. Onlardan biri də "Hoçazfilm" yaradıcılıq studiyasının çəkiliş pavilyonudur. Şəhərə səfərimiz çərçivəsində yolumuzu bu çəkiliş pavilyonundan salıb indiyədək həyata keçirilən layihələrlə maraqlandıq və görülən işlərlə də tanış olduq.**



# Laçın Hollivuda çevriləcək

## Cənubi Qafqazda analoqu olmayan "Hoçazfilm" yaradıcılıq studiyası regional audiovizual mərkəz kimi fəaliyyət göstərir




### Hoçaz dağının adını daşıyan yaradıcılıq studiyası

"Hoçazfilm" yaradıcılıq studiyası Cənubi Qafqazda analoqu olmayan bir məkandır. Burada istənilən janrlı filmlərin çəkilməsi üçün real imkanlar, beynəlxalq standartlara uyğun avadanlıqlar mövcuddur.

Studiya ilə bağlı maraqlı müqayisəyə ehtiyac yaranır. Belə ki, dünyanın ən məşhur filmlərinin çəkildiyi Hollivud da qayalar üzərində yaradılıb. Uca dağların qoynunda yerləşən Laçın və Hoçaz dağının adını daşıyan studiya Hollivuda bənzəyir. Burada bəlkə də dünya kinosu inciləri sırasına daxil olacaq çoxlu filmlər çəkiləcək.

Ötən il avqustun 25-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Laçın rayonuna səfərləri zamanı "Hoçazfilm" yaradıcılıq studiyasının çəkiliş pavilyonunun açılışı olub.

Bir ildən çoxdur ki, fəaliyyət göstərən studiyanın rəhbəri kinorejissor Amil Amalla görüşüb mədəniyyət mərkəzi ilə tanış oluruq. Bəlli olur ki, Qarabağın çoxşaxəli nadir yaradıcılıq məkanı olan "Hoçazfilm" studiyası iki inzibati binadan və bir çəkiliş pavilyonundan ibarətdir. Studiyanın adı Laçın rayonunun əsas rəmzlərindən sayılan Hoçaz dağının  adından götürülüb. Studiya, Laçın başda olmaqla, ümumilikdə Qarabağ regionunun işğal və işğaldan sonrakı dövrlərinin salnaməsini yaratmaqda regional audiovizual mərkəz kimi fəaliyyət göstərir. Studiya çəkiliş məqsədilə regiona gələn yerli və xarici film istehsalçılarına bölgənin zəngin təbiəti, imkanları ilə bağlı bələdçilik edir və lokasiya xidmətləri göstərir, onları müvafiq avadanlıqla təmin edir.

### Təyyarə, helikopter interyeri, elmi-fantastik filmlərin çəkilişi üçün laboratoriya

Çoxşaxəli yaradıcılıq məkanı olan "Hoçazfilm"in perspektiv fəaliyyət istiqamətləri çox genişdir. Bu istiqamətlərə Şərqi Zəngəzur və Qarabağ regionunun genişmiqyaslı təbliğatı ilə bağlı layihələrin icrası, bölgədə keçiriləcək mədəni-kütləvi tədbirlərin işıqlandırılması, Laçında yenidənqurma işlərinin, regionun milli brendlərinin və yerli məhsulların təşviqi, kinoteatr və yaradıcı ittifaqla əməkdaşlıq, gənclər üçün yay məktəbləri, yaradıcılıq atelyeləri, kinematoqrafiya və müsabiqələrin təşkili daxildir. Studiyanın tərkibində "Hochaz Hotel" də fəaliyyət göstərəcək. Hazırda hoteldə təmir işləri son tamamlama prosesindədir.

"Hoçazfilm"in binasına daxil oluruq. Buradakı maraqlı dekorlar diqqətimizi çəkir. Studiya kinofilmlər üçün əl işləri olan avadanlıqlarla zəngindir. Onların içərisində diqqətimizi çəkənlərdən təyyarə və helikopter interyeri, həbsxana və elmi-fantastik filmlərin çəkilişi üçün laboratoriya var. Bu laboratoriya həmçinin televiziya studiyası kimi də istifadə edilir. Bundan əlavə, burada yaşıl pərdə (xromokey) də mövcuddur.

Pavilyon texniki təchizat, o cümlədən səs, işıq izolyasiyası baxımından beynəlxalq standartlara uyğundur. Kino sənayesində ən çox tələbat duyulan dekorların hər biri xüsusi olaraq "Hoçazfilm"in sifarişi əsasında hazırlanmış əl işidir. Bütün bunlar kino və digər kommersial çəkilişlər üçün müxtəlif agentliklər və studiyalarla qarşılıqlı faydalı əməkdaşlığın yaradılması baxımından çox əhəmiyyətlidir.

Studiyada ərsəyə gələn sənədli, bədii filmlərə və hazırda həyata keçirilməkdə olan layihələrə gəlincə Amil Amal bildirdi ki, hazırda studiya "Filming Karabagh" layihəsi üzərində çalışır, yerli və xarici film, reklam istehsalçılarına regionun zəngin təbiətindən yararlanmaq üçün bütün lazımi xidmətlərin göstərilməsini təklif edir. Xidmətlər içərisində bütün rəsmi icazələrin alınması, logistika, məkanlar, pavilyon, dekorlar, hotel və ketrinq xidməti nəzərdə tutulub.

Studiya fəaliyyət göstərdiyi müddət ərzində 6 bədii-sənədli televiziya filminə və 2 əyləncəli verilişə təşkilati (bələdçilik, yerləşmə, pavilyon, bəzən qidalanma) dəstək göstərib.

Burada ərsəyə gələn filmlərin və verilişlərin ümumi siyahısına nəzər saldıqda bəlli olur ki, "Ermənilərin laçınlılara 30 illik ev kirayəsi borcu var", "Vətənim Laçın", "İlk Novruz", "Qərbi Azərbaycanın təbiəti və təbii sərvətləri", "Laçında bir gün", "Həyat sənəti - rejissor!" sənədli filmləri çəkilib.

Bundan əlavə, "Hoçazfilm" Laçında fəaliyyət göstərən bir neçə müəssisənin, xüsusilə Zerti Ayaqqabı Fabrikinin loqolarını hazırlayıb.

Həmçinin bildirildi ki, "Hoçazfilm" yaradıcılıq studiyasının ilk layihəsi Azərbaycan Xalq Cümhuriyyətinin ilk hərbi naziri, əslən laçınlı Xosrov bəy Sultanovun həyat və fəaliyyətindən bəhs edən "Qarabağ qubernatoru" bədii-sənədli filmidir. Layihənin məqsədi tarixi paralellər aparmaqla Qarabağ və Zəngəzur ətrafında erməni daşnaklarının və Qafqazda maraqları olan böyük siyasi güclərin həyata keçirdikləri işğalçılıq siyasəti, törətdikləri cinayətlər barədə həqiqətləri dünyaya çatdırmaq, 44 günlük Vətən müharibəsində Zəfər qazanmış Azərbaycan xalqının, dövlətçiliyinin əzəmətini, qüdrətini tərənnüm və təbliğ etməkdir.

### "Hoçazfilm"in öhdəsinə düşən böyük məsuliyyət

Amil Amal deyir ki, Laçının 2025-ci ildə MDB-nin mədəniyyət paytaxtı statusuna sahiblənməsi onları da qürurlandırıb. Bu tarixi qərarı tək Laçına deyil, Azərbaycan mədəniyyətinə verilən yüksək dəyər kimi qiymətləndirən kinorejissor bildirir ki, bu məqsədlə  "Hoçazfilm" kinostudiyası da üzərinə düşən vəzifəni reallaşdırmağı planlaşdırır. Belə ki, kinostudiya gələn ilin yay aylarında "Lachin İnternational Film Festival" layihəsini təqdim edəcək. Hazırlıq mərhələsində olan festivalın məqsədi həm MDB-nin, həm də türk dövlətlərinin kinorejissorlarını, kinossenaristlərini, ümumilikdə kino xadimlərini bir yerə toplamaqdır.

Amil Amal deyir ki, onlar təkcə kino yox, həmçinin regionda işğaldan əvvəlki və işğaldan sonrakı salnaməni formalaşdırmaq niyyətindədirlər: "Yüz il sonra bizim çəkdiyimiz kadrlara baxan insanlar buranın necə cənnətə çevrildiyinin şahidi olacaqlar. İşğal dövrünü əks etdirən sökük, talan olunmuş evləri kameraya çəkmək istəyirik. Bunların hamısı düşmənin xarakterini açan dəlil-sübutlardır. Bu mənada "Hoçazfilm"in öhdəsinə böyük məsuliyyət düşür. Min kvadratmetr sahəsi olan pavilyonumuzda ölkəmizin heç bir yerində olmayan dekorlar var. Məsələn, təyyarə interyeri heç yerdə yoxdur. Həbsxana interyeri "Azərbaycanfilm"də var, ancaq bizdəki qədər geniş və keyfiyyətli deyil. Bundan savayı, həm studiya verilişlərini çəkə biləcəyimiz, həm də elmi-fantastik filmlər üçün nəzərdə tutulmuş laboratoriyamız var. Buranı asanlıqla həm kosmik gəmiyə, həm də kimya laboratoriyasına çevirmək imkanı var. Hazırda "Hoçazfilm"in saytı üzərində çalışırıq və ilin sonuna kimi bunu da təqdim edəcəyik".

Onun sözlərinə görə, müştərilər "Hochazfilm.az" saytına asanlıqla daxil olub, hər bir dekoru müəyyən qiymətə təyin olunmuş vaxt ərzində bron etmək imkanı qazanacaqlar. Əsas özəllik ondan ibarətdir ki, çəkiliş məqsədilə regiona gələn hər hansı bir komandaya paket şəklində imkanlarını təklif edə bilirlər.

Göründüyü kimi, "Hoçazfilm" studiyası üçün yaradılan imkanlar çox genişdir və getdikcə bütün bunlar daha da genişləndiriləcək. Dağlar qoynunda yerləşən Laçında dünyaşöhrətli sənədli, bədii filmlərin çəkilişi üçün əlverişli zəmin yaranacaq. Bu da, əlbəttə ki, Azərbaycanın dünyada mədəniyyət mərkəzi kimi tanınmasında mühüm rol oynayacaq.

"Hoçazfilm" studiyası ilə tanışlıq, həqiqətən də, bizdə xoş təəssüratlar yaratdı. Elə bu xoş təəssüratla da Laçında inşa edilən Şərqi Zəngəzurun ən böyük məscid kompleksinə yollanırıq...

*Rəşad BAXŞƏLİYEV,*
*Lazım QULİYEV,*
*"Azərbaycan"*



















## ZƏFƏR gündəliyi
## 1 noyabr 2020-ci il

### Erməni əsgəri silahını atıb şərəfsizcəsinə qaçır

Noyabrın 1-də Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və yaşayış məntəqələrimizi müxtəlif silahlardan, o cümlədən artilleriya və raketlərdən atəşə tutublar.

Döyüş əməliyyatları əsasən cəbhənin Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində davam edib.

Ermənistan silahlı qüvvələrinə qarşı görülən cavab tədbirləri nəticəsində düşmənin şəxsi heyəti arasında xeyli sayda itki olub.

Sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 1 ədəd PDM, 2 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 8 ədəd müxtəlif tipli topu, 2 rabitə qülləsi, 5 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.



### Düşmənin canlı qüvvəsi və iki artilleriya batareyası məhv edilib

Saat 10:00-dan başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər şəhərini, rayonun Şıxarx qəsəbəsi, Qapanlı, Əskipara, Səhləabad kəndlərini, eləcə də Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndini intensiv artilleriya atəşinə tutublar.

Artilleriya bölmələrimizin dəqiq zərbələri ilə düşmənin canlı qüvvəsi və iki artilleriya batareyası məhv edilib.

### Dövlət sərhədində yerləşən rayonlarımız atəşə tutulub

Ermənistan silahlı qüvvələrinin bölmələri Ermənistan-Azərbaycan dövlət sərhədində yerləşən Azərbaycan Ordusu bölmələrinin mövqelərini artilleriya, minaatan və atıcı silahlardan atəşə tutublar.

Müxtəlif vaxtlarda Ermənistanın Berd, Çəmbərək və Gorus rayonlarından Azərbaycanın Tovuz, Gədəbəy və Qubadlı rayonlarında yerləşən ordu bölmələrimizin mövqeləri düşmən tərəfindən atəşə məruz qalıb.

### Erməni əsgərlərindən hərbi qənimət kimi silah-sursat götürülüb

Ermənistan-Azərbaycan dövlət sərhədinin Zəngilan rayonu sahəsində bölmələrimizin mövqelərini atəşə tutan düşmənin 2 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi zərərsizləşdirilib.

Ermənistan-Azərbaycan dövlət sərhədinin Zəngilan rayonu sahəsində gedən döyüşdə zərərsizləşdirilən düşmən bölmələrindən hərbi qənimət kimi silah və sursat götürülüb.



### Düşmənin hərbi sursatla dolu iki yük maşını məhv edilib

İşğal olunmuş ərazimizdə yerləşən Ermənistan silahlı qüvvələrinin raket-artilleriya silahları anbarı bir neçə gün əvvəl tərəfimizdən məhv edildikdən sonra düşmən bölmələrində ciddi silah-sursat qıtlığı yaranıb.

Buna görə də düşmən sərəncamında olan bütün silah-sursatlardan döyüşlərin  getdiyi ən qaynar istiqamətdə istifadə etməyə çalışır.

Axşam saatlarında ərazinin havadan müşahidəsi zamanı düşmənin hərbi sursatla dolu iki yük maşınının daldalandığı yer müəyyənləşdirilib. İstiqamətlənmiş dəqiq atəş zərbəsi ilə hərbi nəqliyyat vasitələri dərhal məhv edilib.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*




# "COP29 Simulyasiyası - Uşaqlar üçün" Ekoloji Forumu təşkil edilib

Oktyabrın 30-da Elm və Təhsil Nazirliyinin təşəbbüsü, "EkoSfera" Ekoloji-Sosial Mərkəz İctimai Birliyi və Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin təşkilatçılığı ilə "COP29 Simulyasiyası - Uşaqlar üçün" Ekoloji Forumu keçirilib.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, bu ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi və ölkəmizdə keçiriləcək mötəbər tədbir olan COP29 ilə əlaqədar olaraq ekoloji forum BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına hazırlıq prosesinə töhfə vermək, gənclərin iqlim dəyişikliyi ilə mübarizədə aktiv iştirakını təşviq etmək, eyni zamanda uşaq və gənclərdə ekoloji şüuru formalaşdırmaq, ətraf mühitin qorunması və iqlim dəyişikliyi ilə mübarizədə onların bilik və bacarıqlarını artırmaq məqsədilə keçirilib.

Forumun rəsmi açılışında elm və təhsil nazirinin müavini Firudin Qurbanov, ekologiya və təbii sərvətlər nazirinin müavini Rauf Hacıyev, BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi Vladanka Andreyeva və COP29 Azərbaycanın İqlim üzrə gənclər çempionu Leyla Həsənova çıxışlarında iqlim dəyişikliyi ilə mübarizədə və ətraf mühitin mühafizəsi istiqamətində məktəblilər arasında məlumatlılığın artırılması üçün ekoloji forum kimi tədbirlərin təşkil olunmasının önəmli olduğunu vurğulayıblar.





Rəsmi hissənin yekununda COP29 Təşkilat Komitəsinin üzvü, "EkoSfera" Ekoloji-Sosial Mərkəz İctimai Birliyinin rəhbəri, Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin direktoru Firuzə Sultan-zadə və ekoklub üzvlərinin iştirakı ilə ekoloji forumun bəyannaməsi qəbul edilib və COP29 Azərbaycanın İqlim üzrə gənclər çempionu Leyla Həsənovaya təqdim olunub.

Tədbir COP29-da müzakirə olunan mövzular və qərar qəbuletmə prosesləri ilə tanış olmaq, müxtəlif ölkələrin nümayəndələri rolunda çıxış edərək iqlim dəyişikliyi ilə mübarizə strategiyalarını işləyib hazırlamaq imkanı verib, həmçinin bu təcrübə iştirakçıların diplomatik bacarıqlarını, kritik təfəkkürünü və komanda işində fəaliyyət göstərmə qabiliyyətini inkişaf etdirməyə xidmət edir.

Tədbirdə qonaq qismində UNICEF-in Azərbaycandakı nümayəndəsinin müavini Ana Dautovic, UNICEF-in Azərbaycan nümayəndəliyinin Təhsil proqramının rəhbəri Leyla Həsənova, BMT-nin İnkişaf Proqramının Azərbaycandakı nümayəndəliyindən Alessandra Rokkasalvo, FAO-nun Azərbaycandakı tərəfdaşlıq və əlaqələndirmə ofisinin rəhbər müavini Bariz Mehdiyev, UNDP Azərbaycanın layihə rəhbəri Zaur Əliyev, Nargis Nəşriyyat Evi, WWF Azərbaycan nümayəndəliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında İctimai Şuranın üzvləri və COP29 Təşkilat Komitəsinin üzvləri iştirak ediblər.

Tədbirin davamı olaraq forum iştirakçıları üçün Ekologiya və Təbii Sərvətlər Nazirliyi Orxus İctimai Ekologiya İnformasiya Mərkəzi, Tusi-Bohm Planetarium, COP29 Məlumat Mərkəzi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), Azərbaycan Milli Xalça Muzeyi, Bakı Zooloji Parkı və Palçıq Vulkanları Turizm Kompleksi kimi məkanlarda paralel sessiyalar, interaktiv seminarlar və işçi qrupları təşkil edilib.

Forumda "Yaşıl Şəbəkə" ekoloji maarifləndirmə proqramı çərçivəsində fəaliyyət göstərən 300-dən çox ekoklub üzvü iştirak edib.

# Türk Dünyası Bələdiyyələr Birliyinin iclasında Azərbaycanın COP29-a evsahibliyindən danışılıb



Türk Dünyası Bələdiyyələr Birliyinin (TDBB) İdarə Heyətinin növbəti toplantısı keçirilib.

Tədbirdə Azərbaycan, Türkiyə, Albaniya, Bosniya və Herseqovina, Qaqauziya, Şimali Kipr Türk Respublikası və Monqolustandan olan TDBB İdarə Heyətinin üzvləri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Türkiyənin Bağçılar bələdiyyəsinin evsahibliyi ilə keçirilən tədbirdə ölkəmizi Azərbaycan Şəhər Bələdiyyələri Milli Assosiasiyasının və Nərimanov bələdiyyəsinin sədri Təmraz Tağıyev və Azərbaycan Şəhər Bələdiyyələr Milli Assosiasiyasının məsul əməkdaşı Rövşən Məmmədov təmsil ediblər.

Tədbirdə TDBB-nin prezidenti, Konya bələdiyyə başçısı Uğur İbrahim Altay, TDBB-nin baş katibi Fəxri Çolak təşkilatın doqquzaylıq fəaliyyətinə toxunaraq türkdilli ölkələrdə formalaşan yerli orqanların qarşılıqlı əlaqələrinin qurulmasında birliyin mühüm əhəmiyyətindən danışıblar. Çıxışlarda TDBB-nin cari ildə həyata keçirdiyi layihələrə toxunulub, qarşılıqlı əməkdaşlığın daha da inkişaf etdirilməsinin zəruriliyi vurğulanıb.

Tədbirdə çıxış edən Azərbaycan Şəhər Bələdiyyələri Milli Assosiasiyasının sədri Təmraz Tağıyev bir gün əvvəl Türkiyənin Cümhuriyyət Günü münasibətilə keçirilən tədbirdə iştirakından məmnun qaldığını, habelə Türkiyə-Azərbaycan dostluğunun əsrlər boyu yaşayacağını, tarixi köklərlə bir-birinə bağlı olan bu münasibətlərin qardaşlıq prinsipləri əsasında qurulduğunu bildirib.

T.Tağıyev qeyd edib ki, İdarə Heyətinin iclasında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçirilməsinin ölkəmizə böyük etimadın göstəricisi olduğu xüsusi vurğulanıb.

O həmçinin diqqətə çatdırıb ki, belə mötəbər tədbirə evsahibliyi edərək Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına tərəf olmaqla qlobal iqlim dəyişmələrinə qarşı mübarizəyə öz töhfəsini verməkdədir.

İdarə Heyətinin bir çox üzvü belə mötəbər tədbirə dəvət aldıqlarını məmnunluqla bildiriblər.

İclasda İdarə Heyətinin ötən doqquz ay ərzindəki fəaliyyəti təhlil edilib və qarşıdakı aylarda həyata keçiriləcək layihələr müzakirə olunub.

Xatırladaq ki, türkdilli ölkələrdə formalaşan yerli orqanların inkişafında, habelə müəyyən inkişaf səviyyəsinə çatmasında TDBB-nin xüsusi rolu var.

# *"Anadolu" Agentliyinin nümayəndəsi:* "COP29-da aparılacaq müzakirələr iqlim strategiyalarına istiqamət verəcək"

"Azərbaycanda keçiriləcək COP29 bütün dünya üzrə iqlim sahəsində çalışan mütəxəssislərin, jurnalistlərin və alimlərin diqqət mərkəzində olacaq. COP29 zamanı iqlim dəyişikliyi, karbon emissiyalarının azaldılması, bərpaolunan enerji mənbələrindən istifadə, ekosistemlərin qorunması və ətraf mühitə dair çox vacib mövzular müzakirə ediləcək. Bu müzakirələrdən çıxan nəticələr gələcək iqlim strategiyalarına istiqamət verəcək və onun əsasında iqlim sahəsində yeni qərarlar qəbul ediləcək".

Bu fikirləri AZƏRTAC-a "Anadolu" Agentliyinin Ətraf mühitə dair xəbərlər departamentinin direktoru Hale Aydoğmuş "COP29 və dayanıqlı media təcrübələri" mövzusunda təlim çərçivəsində söyləyib.

Hale Aydoğmuş bildirib ki, bu qərarların geniş auditoriyaya çatdırılması və onların düzgün formada izah edilməsi, həmçinin qərarların sonrakı inkişaf mərhələsində diqqətlə izlənilməsi vacibdir: "İqlim məsələləri üzrə mütəxəssislər və jurnalistlər bu tədbirdən alınan məlumatları geniş ictimaiyyətə dəqiq və ətraflı şəkildə çatdırmaqla insanların iqlim dəyişikliyi ilə bağlı məlumatlılığını artırmağa kömək edə bilərlər. Müzakirələrdən sonra çıxarılan qərarların dəyərləndirilməsi və ictimaiyyətlə düzgün ünsiyyət iqlim dəyişikliyi ilə mübarizədə qlobal səyləri bir araya gətirmək üçün mühüm əhəmiyyət daşıyır".



H.Aydoğmuş əlavə edib ki, COP29 iqlim siyasətindəki dəyişikliklərin və yeniliklərin yaradılmasında açar rolunu oynayacaq: "Bu səbəbdən biz də bu qərarları dərindən anlayaraq onların izləyicisi olmalıyıq".

Qeyd edək ki, "COP29 və dayanıqlı media təcrübələri" təlimi MEDİA Agentliyinin və ADA Universiteti İnkişaf və Diplomatiya İnstitutunun birgə təşkilatçılığı ilə keçirilir.

# COP29 ərəfəsində miqrasiya qaydaları ilə bağlı güzəştlər tətbiq olunacaq

"Dövlət Miqrasiya Xidməti tərəfindən COP29 Təşkilat Komitəsi, COP29 Azərbaycan Əməliyyat Şirkəti ilə birgə miqrasiya qeydiyyat prosedurlarının sadələşdirilməsi, məlumatlılığın artırılması, eləcə də ölkəyə giriş-çıxış zamanı qarşıya çıxa biləcək məsələlərin çevik həlli istiqamətində tədbirlər görülüb".

AZƏRTAC xəbər verir ki, bunu Dövlət Miqrasiya Xidmətinin nümayəndəsi Ülvi Əliyev Heydər Əliyev Beynəlxalq Hava Limanında təşkil olunan media-tur çərçivəsində keçirilən brifinqdə deyib.

Onun sözlərinə görə, COP29 ərəfəsində miqrasiya qaydaları ilə bağlı güzəştlər tətbiq olunacaq.

"Azərbaycan Hökuməti ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Katibliyi arasında imzalanmış sazişə əsasən, 15 gün ərzində qeydiyyat tələbi COP29 iştirakçıları üçün 30 günədək uzadılıb. Güzəştlər BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının qeydiyyatından keçərək COP29 vizası ilə və ya vizasız qaydada ölkəyə gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə şamil olunur. Həmçinin bu tələblərin praktiki tətbiqi, tədbirdə iştirak edən əcnəbilərin, xüsusilə ölkəmizə vizasız gələn şəxslərin ölkəyə giriş-çıxış zamanı rahat, maneəsiz keçidi üçün zəruri texniki və təşkilati hazırlıq işləri görülüb", - deyə xidmət nümayəndəsi əlavə edib.

Ülvi Əliyev vurğulayıb ki, tətbiq edilən qaydalarla bağlı əcnəbilərin məlumatlandırılmasının təmini üçün görülmüş birgə tədbirlər nəticəsində COP29-un rəsmi internet səhifələrində və digər müvafiq mənbələrdə miqrasiya qaydaları barədə məlumatlar yerləşdirilib, o cümlədən Azərbaycana uçuşlar həyata keçirən aviasiya şirkətlərinin, eləcə də digər hədəf qruplarının müvafiq qaydada məlumatlandırılması təmin edilib: "Konfrans müddətində ölkəyə gələn əcnəbilərin miqrasiya orqanları ilə mümkün təmas nöqtələrində - Heydər Əliyev Beynəlxalq Aeroportunda, xidmətin Çağrı Mərkəzində və digər xidmət nöqtələrində gücləndirilmiş iş rejiminə keçirilməsi ilə bağlı zəruri tədbirlər görülüb. COP29 tədbiri zamanı Beynəlxalq Miqrasiya Təşkilatı ilə birgə iqlim dəyişikliyi kontekstində insan yerdəyişməsi mövzusuna həsr olunmuş (18 noyabr) yüksəksəviyyəli panel müzakirənin keçirilməsi də planlaşdırılıb".

# Kolumbiya mətbuatında Azərbaycanın COP29-a evsahibliyindən bəhs edilib




Kolumbiyanın tanınmış "Primacia" qəzetində "COP29: planetimizin yaşaması üçün" başlıqlı məqalə dərc edilib.

Azərbaycanın Meksikadakı səfirliyindən AZƏRTAC-a bildirilib ki, məqalədə COP29-un iqlim dəyişikliklərinin təsirlərinin aradan qaldırılması baxımından qlobal əhəmiyyət daşımasına, ölkəmizin bu istiqamətdə mühüm beynəlxalq aktorlardan birinə çevrilməsinə diqqət çəkilir. Qeyd olunub ki, Azərbaycan neft-qaz ixracatçılarından biri hesab olunsa da, ölkədə "yaşıl iqtisadiyyat" siyasəti son illərdə uğurla inkişaf etdirilməkdədir. COP29 Azərbaycanın bərpaolunan enerjidən istifadə, karbon emissiyalarının azaldılması və ətraf mühitin mühafizəsi sahəsində əldə etdiyi uğurları beynəlxalq ictimaiyyət ilə bölüşməsi üçün yaxşı bir fürsət olacaq.

Məqalədə dünyanın ən uğurlu liderlərindən biri olan Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın mötəbər beynəlxalq tədbirlərə evsahibliyi etməsinin adi hala çevrildiyi və COP29-da da bəşəriyyətin gələcəyi üçün xüsusi əhəmiyyət kəsb edən məsələlərin müzakirə ediləcəyi bildirilir.

Eyni zamanda Kolumbiya Hökumətinin iqlim dəyişikliyi və ətraf mühit məsələlərinə ciddi əhəmiyyət verdiyi və bütün dünyanı təhdid edən çağırışlara qarşı digər ölkələrlə birlikdə COP29 çərçivəsində ortaq cavab axtarışında olacağı qeyd olunur.

Kolumbiyali jurnalist Roberto Trobaxonun sözügedən məqaləsi həmçinin bir neçə digər yerli mətbu orqanlarında dərc olunub.

# Qazaxıstan COP29-da ilk dəfə öz pavilyonunu təqdim edəcək

"Bu il Qazaxıstan noyabrda Bakıda keçiriləcək COP29 qlobal iqlim konfransında uzun illərdən sonra ilk dəfə olaraq öz pavilyonunu təqdim edəcək".

AZƏRTAC Qazaxıstan mediasına istinadla xəbər verir ki, bunu Qazaxıstan Respublikasının ekologiya və təbii sərvətlər nazirinin müşaviri Saken Kalkamanov deyib. O əlavə edib: "Azərbaycan qardaş və tərəfdaş respublika kimi bizim dəstəyimizi alır. Biz də digər Mərkəzi Asiya ölkələri və türk dövlətləri ilə birlikdə bu tədbirdə fəal iştirak edəcəyik".

Onun sözlərinə görə, Qazaxıstan pavilyonu 150 kvadratmetr ərazini əhatə edəcək və aşağıdakı bölmələrdən ibarət olacaq; ekologiya sahəsində nailiyyətlərin nümayişi üçün sahə, panel müzakirələri, sessiyalar, təqdimatlar və yan tədbirlər üçün konfrans zalı, davamlı inkişaf məqsədlərinə nail olmaq üçün beynəlxalq şirkətlər, banklar və tərəfdaşlarla memorandumların imzalanacağı görüş zalı.

"Ümumiyyətlə, sərgi dünyada istixana effektinin azaldılması və ətraf mühitin yaxşılaşdırılması məqsədi daşıyır, eyni zamanda eksponatlarda Mərkəzi Asiya və Xəzəryanı regionlara xüsusi diqqət yetiriləcək. Dövlət başçıları, Ekologiya nazirliklərinin və digər dövlət orqanlarının rəhbərləri illərlə yığılıb qalmış ekoloji problemlərin həlli yollarını tapmağa və onların aradan qaldırılması üçün gələcək addımları müəyyən etməyə çalışacaqlar", - deyə Qazaxıstan Respublikasının ekologiya və təbii sərvətlər nazirinin müşaviri bildirib.

# "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində ağacəkmə aksiyası keçirilib

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin dəstəyi ilə Abşeron rayonunda ağacəkmə aksiyası keçirilib.



AZƏRTAC xəbər verir ki, aksiyada vətəndaş cəmiyyətinin üzvləri, habelə "İstedadlı əlillər" İctimai Birliyinin üzvləri, müharibə əlilləri, o cümlədən digər həssas əhali qruplarından olan şəxslər, Abşeron Rayon İcra Hakimiyyətinin nümayəndələri, YAP Abşeron rayon təşkilatının üzvləri iştirak ediblər.

"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində keçirilən aksiyada 50-dən artıq ağac əkilib. Milli Məclisin deputatı Nigar Məmmədova bildirib ki, bu cür ekoloji aksiyaların təşkili ətraf mühitin mühafizəsinə, təbiətin sağlamlaşdırılmasına töhfə vermək, ekoloji tarazlığın bərpasına kömək etmək, eyni zamanda cəmiyyətin hər bir üzvünü ekoloji problemlərə qarşı mübarizədə birgə fəaliyyətə səsləmək məqsədi daşıyır.

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Avropa Parlamenti özü özünü ifşa edir

### "Xristian klubu"nun qərəzli qətnaməsini digər kağız parçalarının taleyi gözləyir

**"Avropa Parlamentinin oktyabrın 24-də qəbul etdiyi "Azərbaycanda vəziyyət, insan hüquqlarının və beynəlxalq hüququn pozulması və Ermənistanla münasibətlər" adlı qətnaməsi ölkəmizə qarşı açıq qərəzdir və qurumun Azərbaycana qarşı qarayaxma kampaniyasından əl çəkmək niyyətində olmadığını göstərir. Təbii ki, Azərbaycan üçün Avropa İttifaqının bu mövqeyinin heç bir siyasi-hüquqi əhəmiyyəti yoxdur və biz təşkilatın cari davranışını qərəz, qeyri-obyektiv və ədalətsiz çirkab kampaniyasının bir hissəsi və özünü ifşası kimi qəbul edirik".**



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib. O bildirib ki, Avropa Parlamentinin son günlər tutduğu mövqe, əslində, Azərbaycana qarşı başlatdığı hibrid savaşda Qərb imperializminin özünün məğlubiyyətidir. Qurumun həmişəki radikal ritorikasını saxlamasına baxmayaraq, qətnamədə müşahidə olunan çaşqınlıq bu qənaətə gəlmək üçün aydın mənzərə formalaşdırır. Məsələn, əvvəllər COP29-un Azərbaycanda keçirilməməsi üçün çağırışlar platformasına çevrilən Avropa Parlamentinin son qətnaməsində çarəsizcəsinə çağırış olunur ki, tədbir çərçivəsində Azərbaycana insan hüquqları üzrə öhdəlikləri xatırladılsın. Deməli, Avropa Parlamentində artıq başa düşülür ki, 200-ə yaxın dövlətin Azərbaycana ehtiramı və etimadı qarşısında COP29-un Bakıda təşkilinə mane olmaq üçün onların nifrət dili reallığı dəyişmək gücünə malik deyil. Yəni Avropa Parlamenti Azərbaycanın hərbi-siyasi zəfərləri ilə regionda yaranan yeni reallıqların fövqündə özü deyib, özü eşidən bir heçə çevrilib. "Gürcüstanda parlament seçkilərinin nəticələri də göstərdi ki, cənab İlham Əliyevin hərbi-siyasi qələbələrindən sonra Qərb imperializminin Azərbaycandan başlanan məğlubiyyət dairəsi genişlənməkdədir. Avropa Parlamentinin heç bir faktiki və hüquqi əsasa söykənmədən səhih olmayan, özlərinin uydurduğu qərəzli mənbələrə istinadən rəsmi sənəd qəbul etməsi həm də onu göstərir ki, bu təsisat Azərbaycanın qlobal miqyasda artan imkan və nüfuzu, habelə dəyişən yeni reallıqlar və cənab İlham Əliyevin formalaşdırdığı konfiqurasiya fonunda aciz qalıb. Əks halda, Avropa Parlamenti qəbul etdiyi rəsmi sənədə heç bir reallığı əks etdirməyən və saxta əsaslara söykənməsi sübut edilən mənbələrə istinad etmək məcburiyyətində qalmazdı", - deyə B.Məhərrəmov əlavə edib.




Deputat qeyd edib ki, Avropa Parlamenti riyakarcasına Azərbaycanı ifadə azadlığının həyata keçirilməsinə görə guya kimlərdənsə "qisas almaq"da günahlandırır. Amma bu qurum özü "Azərbaycanda vəziyyət, insan hüquqlarının və beynəlxalq hüququn pozulması və Ermənistanla münasibətlər" adlı qəbul etdiyi qətnamədə tələb edir ki, Avropa institutları və Avropanın vəzifəli şəxslərini tənqid edən Azərbaycan rəsmilərinin Aİ binalarına girişi qadağan olunsun. Ritorik sual ortaya çıxır, budurmu Avropa Parlamentinin ifadə azadlığına münasibəti? Deməli, Avropa İttifaqı üçün ifadə azadlığının sərhədi onların özlərinin adı çəkilənə qədərdir. XXI ərdə fikrini ifadə etdiyinə, yəni avroqurumları tənqid etdiyinə görə sanksiya çağırışı qitə miqyasında ifadə azadlığı üçün böyük təhdiddir. Bu, təkcə bizə yönələn akt deyil, cari qətnamə ilk növbədə ümumbəşəri dəyərlər, o cümlədən 1948-ci il Konvensiyası, 1966-cı il paktları başda olmaqla, çoxsaylı sənədləri sual altına alır. Azərbaycanla bağlı qəbul edilən, lakin tək Azərbaycanda deyil, bütövlükdə Avropa yurisdiksiyasında hüquqi çaşqınlıq yaradan və presedenti olmayan belə bir addımın ardınca ortaya çıxan hüquqi suallar fonunda Avroparlamentin uğursuzluqlarla başa çatmış digər kampaniyalarının təkrar dirçəldilməsinə yönəlik addımdır və bütövlükdə insan haqları adına müsbət heç nə vəd etmir. Ona görə də özünü beynəlxalq hüquqa sadiq hesab edən hər bir qlobal subyekt ifadə azadlığına təhdid yaradan bu qətnaməyə görə Avroparlament barəsində qlobal miqyasda çəkindirici addımların atılması istiqamətində iş aparmalıdır.

B.Məhərrəmov bildirib ki, Avropa Parlamentinin növbəti qətnaməsinin ardınca ölkədəki Qərbdən bəslənən antimilli ünsürlər cidd-cəhdlə belə bir fon yaratmağa çalışırlar ki, guya bu qətnamə Azərbaycan dövlətinə deyil, hakimiyyətinə qarşı yönəlib. Amma aydın formada görünən odur ki, hədəf müstəqil Azərbaycan dövlətçiliyi və xalqın suverenliyidir. Hakimiyyətin hədəfə alınması isə Azərbaycanda hakim suveren milli iradəni marionetlərlə əvəzləmək arzusudur.

Azərbaycanın ümumbəşəri dəyərlər naminə bütün platformalara açıq olduğunu, o cümlədən Avroparlamentlə gərgin münasibətlərin bizdən qaynaqlanmadığını deyən deputat bildirib ki, əgər bu təşkilatın tribunası səlib yürüşləri üçün rupor kimi istifadə olunursa, biz susa bilmərik: "Xüsusən də Avropa Parlamentinin insan haqları amilindən siyasi məqsədlərlə istifadə etməkdə qərarlı olduğu bir şəraitdə. Biz Avropa Parlamentinin səmimi niyyətinə o zaman şübhə etməzdik ki, Avropa İttifaqının üzvləri də, ələlxüsus aparıcı mövqeyə sahib olmağa çalışan və bir sıra hallarda Avropa İttifaqı təsisatlarının qərarlarına birmənalı şəkildə təsir edən Fransa da bu qəbildən çoxsaylı cinayətlər və pozuntular törədilməsinə münasibət bildirəydi. Bir müddət əvvəl Azərbaycan Xarici İşlər Nazirliyinin yaydığı bəyanatda da ifadə olunduğu kimi, Fransada "sarı jiletlilər" aksiyasında etirazçıların kütləvi şəkildə öldürülməsi, o cümlədən Fransanın neokolonial siyasəti nəticəsində dənizaşırı ərazilərdə yerli əhaliyə qarşı işgəncələr, habelə Avropa İttifaqı strukturlarında, hətta barəsində cinayət təqibi başlamış çoxsaylı faktlar fonunda rüşvətxorluq, korrupsiya hallarının yayılması, islamofobiya və müsəlmanlara qarşı hücum, ötən il məhz fransız olmadığına görə Fransa vətəndaşlarının öldürülməsi faktları fonunda əgər Avropa Parlamenti susursa, bu gün həmin təsisatın təşkilata üzv olmayan bir dövlətdə vəziyyətlə bağlı hər hansı bəyanatı qəbuledilməz və gülüncdür. O cümlədən Avropa İttifaqı strukturları terrorçuları, əli azərbaycanlıların qanına batmış və törətdikləri müharibə cinayətlərini, ekosid, urbisid və kultrasid əməllərini rəsmən etiraf etmiş şəxslərin müdafiəsini hədəfləyirsə, bu, əslində, Avropa Parlamentinin özünün həmin cinayətlərə haqq qazandırdığı və həmin cinayətkarları açıq formada dəstəklədiyi anlamına gəlir".

Azərbaycanın Vətən müharibəsindən sonra yaratdığı reallıqlar fonunda Qarabağda 2023-cü ilin sentyabr ayına qədər mövcud olmuş separatçı rejimin əsas maliyyə və hərbi təchizatçılarından birinin məhz Avropa İttifaqı olduğunu vurğulayan B.Məhərrəmov bildirib ki, xüsusən Fransa, siyasi dəstəkçisi isə məhz Avropa Parlamenti olmuşdur. Bu gün görünən reallıq ondan ibarətdir ki, Avropa Parlamenti bu riyakar mövqeyini müdafiə etməkdən yenə də çəkinmir və açıq şəkildə Ermənsitanda baş qaldırmış revanşist niyyətlərin daha da təhrik olunması, bölgədə 4 il əvvələ qədər mövcud olmuş münaqişəli situasiyanın yenidən hakim status-kvoya çevrilməsi üçün çalışır. Milli Məclisin cavab bəyanatında da haqlı formada ifadə edildiyi kimi, Avropa Parlamentinin Azərbaycan xalqının haqlı gözləntilərinə münasibətdə etinasızlığına artıq alışmışıq. Nəticə etibarilə Ermənistan tərəfindən torpaqlarımızın 30 illik işğalı, şəhər və kəndlərimizin Yer üzündən silinməsi, işğal olunmuş torpaqlarımızda və Ermənistan ərazisində xalqımızın tarixi, dini və mədəni irsinin kütləvi şəkildə dağıdılması və mənimsənilməsi, qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş bir milyondan artıq soydaşımızın hüquqlarının tapdanması, onların uzun illər ərzində çəkdikləri iztirablar avropalı parlamentariləri heç vaxt maraqlandırmayıb. Lakin 44 günlük Vətən müharibəsi və antiterror tədbirləri nəticəsində Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam təmin etməsi, beynəlxalq hüququn norma və prinsiplərini təkbaşına icra etməsi ilə biz öz təhlükəsizliyimizi təmin etmişik, möhtərəm Prezidentin dediyi kimi, Azərbaycan təhlükəsizlik adasıdır. Cənab İlham Əliyevin rəhbərliyi ilə yaradılan reallıq o cümlədən vətəndaşlarımızın hüquq və azadlıqlarını təhdidlərdən sığortalamağa imkan verir. Azərbaycan Respublikasının suveren, tam müstəqil, regionda əsas diktəedici hərbi-siyasi gücə çevrilməsi Avropa Parlamentinin, yaxud hər hansı digər beynəlxalq subyektin ölkəmizə münasibətdə qərəzli, təcavüzkar məqsədlərə xidmət edən hər hansı mövqeyi, bəyanatı, yaxud təzyiq cəhdini heçə endirir. Bu mənada Avropa Parlamentinin 24 oktyabr tarixli qərəzli qətnaməsini də əvvəlki dövrlərdə qəbul edilən və heç bir nəticəyə səbəb olmayan sənədlər ilə eyni tale gözləyir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Gürcüstanda marionet hakimiyyət qurulmasına cəhdlər edilir

### Qərbin bu ölkəni qarşıdurmalara çəkməsi, müxalifətdən alət kimi istifadə etməsi təsadüfi deyil

"Qərbin bəzi dövlətləri Cənubi Qafqazı öz təsir dairələrinə daxil etmək üçün müxtəlif planlar həyata keçirməyə çalışırlar. Gürcüstanda parlament seçkiləri ilə bağlı yaranmış vəziyyət bunun göstəricisidir".

Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Sevinc Fətəliyeva deyib. O bildirib ki, Qərbin seçkilərdən istifadə edib Gürcüstanı qarşıdurmalara çəkməsi, bu ssenaridə müxalifətdən alət kimi istifadə etməsi təsadüfi deyil. Məsələnin kökündə ABŞ-nin və Avropa İttifaqının geostrateji maraqları dayanır. Qərb Cənubi Qafqazda möhkəmlənmək, burada Rusiyaya qarşı ikinci cəbhə açmaq üçün plasdarm dövlətlər axtarışındadır. Bu məqsədlə Gürcüstanda da marionet bir hakimiyyət qurulmasına cəhdlər göstərilir.

Deputat bildirib ki, müxtəlif Qərb dövlətlərindən verilən bəyanatlar onların Gürcüstan və bütövlükdə Cənubi Qafqaz siyasətinə hansı prizmadan yanaşdığını təsdiqləyir: "Bu bəyanatların məzmununda açıq şantaj və diktə var. Qərb ayrı-ayrı dövlətlərin müstəqil siyasətini və onların xalqlarının milli iradələrini qəbul etmək istəmir. Qərbin demokratiya anlayışının gerçək mahiyyəti bundan ibarətdir: hansı dövlət onların ambisiyalarına boyun əymirsə, diktələrini qəbul etmirsə və müstəqil siyasət aparmağa çalışırsa, ona dərhal "antidemokratik" damğası vurulmalıdır, təzyiq və cəza mexanizmləri işə salınmalıdır. Son olaraq Gürcüstanın hələ seçkilərdən öncə Vaşinqtonun və Brüsselin sanksiyaları ilə hədələnməsi bunun bariz nümunəsidir".

S.Fətəliyevanın sözlərinə görə, bu ilin mayında Gürcüstanda "Xarici təsirin şəffaflığı haqqında" qanunun qəbulu ilə başlanan "siyasi konflikt" ötən dövrdə yüksələn xətlə inkişaf edib. Bu müddət ərzində Gürcüstanın Avropa İttifaqına inteqrasiya prosesi dayandırılıb, Tbilisiyə göstərilən yardımlar sanksiyalaşdırılıb. Çünki qəbul olunan qanun Qərbin Gürcüstana təsir imkanlarını məhdudlaşdırır. Qanunun qəbul olunması sırf milli maraqlara yaranan təhdidlərin qarşısını almaq zərurəti ilə bağlıdır. Gürcüstan hakimiyyəti də bəyan edib ki, ölkənin milli maraqları bu qanunun qəbul olunmasını zəruri edib. Gürcüstanı təzyiqlər altında saxlamaq istəyən Qərb dairələri qanunu "antidemokratik" adlandırır. Qanunun hələ müzakirə mərhələsində olduğu vaxtlarda gürcü müxalifətinin təşkil etdiyi mitinqlərdə, konkret olaraq may ayında Avropa İttifaqına üzv olan Litva, Estoniya, İslandiya və Latviyanın xarici işlər nazirlərinin iştirak etməsi də Qərbin açıq-aşkar təzyiqlərinin göstəricisi idi. Lakin Gürcüstan hakimiyyəti geri çəkilməyərək sözügedən qanunu qəbul etdi. Bundan sonra Avropa İttifaqı Gürcüstanın təşkilata üzvlük məsələsi ilə bağlı danışıqları dayandırdı. Eləcə də Tbilisiyə bəzi maliyyə yardımlarının kəsildiyi də bəyan edildi.



Sevinc Fətəliyeva qeyd edib ki, Qərb Gürcüstan xalqının seçiminə hörmətlə yanaşmalıdır: "Ermənistan hakimiyyəti birmənalı şəkildə Qərbin təsiri altındadır. ABŞ, Fransa kimi dövlətlər Paşinyan hakimiyyətinə istədiyi məsələni diktə edir. Bu "siyasət"i onlar Gürcüstanda da tətbiq etmək istəyirlər, ona görə də parlament seçkilərində gürcü xalqının seçimini qəbul etmirlər. Qərb Azərbaycana qarşı da təzyiq göstərməyə çalışır və COP29-un Bakıda keçirilməsini özləri üçün fürsət bilir".

Deputat bildirib ki, oktyabrın 24-də Avropa Parlamenti tərəfindən ölkəmizlə bağlı qəbul edilən qərəzli qətnamə bunu təsdiqləyir. Bu gün Avropadakı islamofobiya, dini dözümsüzlük, müəyyən dairələrin maraqlarının və ambisiyalarının həyata keçirilməsi hər kəsə bəllidir. Avropa Parlamentinin üzvləri korrupsiyaya qurşanıb ermənilərə lobbiçilik edərək ikili standartlardan çıxış edirlər. Belə olan halda onların kimdənsə nəyisə tələb etməyə haqları yoxdur. Müharibə cinayətləri törətmiş Ermənistanı müdafiə etmək, bu ölkənin başçısına yüksək "qonaqpərvərlik" göstərmək və onunla həmrəy olmaq, əslində, bu ölkənin cinayətlərinə dəstək vermək deməkdir. Bununla da, Avropa Parlamenti bir daha gerçək simasını nümayiş etdirdi. Bütövlükdə, Qərbin Cənubi Qafqazı özünün poliqonuna çevirmək cəhdi qəbulolunmazdır. Bu plan heç vaxt baş tutmayacaq.

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Qərbin məkri Gürcüstanda puça çıxdı

Gürcüstanda keçirilən parlament seçkilərindən bir həftəyə yaxın vaxt ötsə də, seçki ətrafında Qərb siyasi dairələrinin yaratdığı şou bitmək bilmir. Söhbət ondan gedir ki, Qərb Gürcüstandakı seçkilərin demokratik şəkildə baş tutduğunu qəbul etmək istəmir və bununla da ölkə vətəndaşlarının siyasi iradəsinə kölgə salmağa çalışır.

### Seçkilər tamamilə demokratik şəraitdə baş tutdu

Xatırladaq ki, Gürcüstanda ümumilikdə 18 siyasi partiyanın iştirakı ilə keçirilən parlament seçkiləri hakim "Gürcü Arzusu - Demokratik Gürcüstan" partiyasının üstün qələbəsi ilə başa çatdı. Seçicilərin 53,92 faizinin səsini toplayan partiya bu göstərici ilə rəqibi olan 4 müxalifət partiyasının birgə topladığı səsi geridə qoydu. Belə ki, 4 müxalifət partiyası parlamentə düşə bilmək imkanı qazansalar da, topladıqları ümumi səs heç 38 faizə çatmadı. Beləliklə, bir daha Gürcüstan vətəndaşlarının etimadını qazanan "Gürcü Arzusu - Demokratik Gürcüstan" partiyası ölkənin aparıcı siyasi qüvvəsi olduğunu yenidən sübut etdi.

Oktyabrın 26-da keçirilən parlament seçkiləri tamamilə demokratik şəraitdə baş tutdu. Hətta bu seçkidə ilk dəfə kütləvi formada elektron səsvermə tətbiq edildi. Seçkiləri izləyən xarici təşkilatların nümayəndələri isə səsvermə prosesində tutarlı və ciddi qanun pozuntusu halını qeydə almadılar. Amma buna baxmayaraq, Qərb siyasi dairələri seçkinin nəticələrini tanımaqdan yayınır, səsvermənin saxtalaşdırıldığını iddia edirlər. 5 faizlik baryeri ötən və parlamentə düşən partiyalar isə Qərbdən aldıqları təlimatlara əsasən parlamentə getməkdən imtina edirlər.

### Cənubi Qafqazı qarışdırmaq planı baş tutmadı

Əslində, hakim partiyanın qalib gələcəyi təqdirdə müxalifətin bu ssenari üzrə hərəkət edəcəyi, Qərbin seçkilərin nəticələrini şübhə altına alacağı əvvəldən proqnozlaşdırılırdı. Çünki Qərbin bəlli siyasi dairələrinin planlarının baş tutmadığı istənilən seçkinin nəticələrinə kölgə salması məlum məsələdir. Gürcüstanda isə Qərb dairələri, onların nəzarətində olan təşkilatlar, habelə bir sıra səfirliklər həftələr öncədən seçki kampaniyasına qara yaxmağa başlamışdılar. Onlar dəstəklədikləri müxalifətin məğlubiyyətindən sonra isə heç bir əsas və fakt göstərmədən seçkilərin nəticələrini tanımaq istəmirlər, mitinqlər keçirməyə çalışırlar, xalqı inqilaba, hakimiyyət dəyişikliyinə çağırırlar.

Bu mənada qonşu ölkədəki seçkilər həm də Qərb siyasi mərkəzlərinin riyakarlığını növbəti dəfə nümayiş etdirdi. Çünki xalqın iradəsinə qarşı çıxmaq, sübut olmadan seçkinin nəticələrinə şübhə ilə yanaşmaq, ona kölgə salmaq riyakarlıqdan başqa bir şey deyil.

Onu da qeyd edək ki, bu seçki təkcə Gürcüstandakı siyasi partiyaların parlamentə düşmək uğrunda mübarizəsi olmadı. Bu seçki həm də Gürcüstan vətəndaşlarının ölkədə söz sahibi olmaq istəyən kənar qüvvələrə qarşı dirənişi idi. Xalq ölkəni öz müstəqil yolundan döndərmək istəyən Qərbə və onun maliyyələşdirdiyi qeyri-hökumət təşkilatlarına "yox" dedi. Bu seçkinin nəticəsi ölkənin Qərbin yad dəyərləri üzərindəki qələbəsi oldu.

Bu seçkidə Qərbin həm də Gürcüstan vasitəsilə Cənubi Qafqazda vəziyyəti gərginləşdirmək, Rusiyaya qarşı ikinci cəbhə açmaq planları baş tutmadı. Beləliklə, Qərbin məkri fiaskoya uğradı.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*



# İŞİMİZ, GÜZƏRANIMIZ

### 1 Noyabr Kənd Təsərrüfatı İşçiləri Günüdür

# Torpaq islahatından innovativ kənd təsərrüfatına



**"Torpağı qorumursansa, əkib-becərməyə, əkib-becərmirsənsə, qorumağa dəyməz". Ulularımızın bu qənaəti - torpağı əkib-becərməyin onu qorumaq qədər vacib və müqəddəs olduğu barədə söylədikləri günümüzə əsrlərin sınağından keçərək çatıb. Mətləbdən uzaqlaşmayaraq buradaca deyək ki, noyabrın 1-i respublikamızda Kənd Təsərrüfatı İşçiləri Günü kimi qeyd edilir. Yəni bu gün onların - torpağı əkib-becərənlərin günüdür.**

Prezident İlham Əliyev bu barədə sərəncamı 2008-ci il oktyabrın 9-da imzalayıb və bu, Azərbaycan kəndinə, Azərbaycan kəndlisinə dövlət qayğısının, diqqətinin çoxsaylı təzahürlərindən yalnız biridir. Bu mövzuda danışarkən regionların inkişafına yönəldilən dörd sosial-iqtisadi inkişaf proqramını (2004-2008-ci, 2009-2013-cü, 2014-2018-ci və 2019-2023-cü illər) xatırlatmaq kifayətdir. Bu proqramlar, eləcə də görülən digər ardıcıl tədbirlər nəticəsində kənd təsərrüfatı sahəsində mühüm irəliləyişlər əldə edilib. Buna paralel olaraq kənd adamının sosial vəziyyəti də yaxşı mənada dəyişib, o cümlədən onun məşğulluq problemi həll olunub. Məşğulluğun təmin olunması isə öz növbəsində güzəranın yaxşılaşması deməkdir.

Bu gün Azərbaycanın kənd təsərrüfatı işçisi öz torpağının, öz taleyinin sahibidir və dövlətin prioritet kimi qarşıya qoyduğu mühüm vəzifələri yerinə yetirir. Vurğulayaq ki, MDB məkanında ilk torpaq islahatı ölkəmizdə Ulu Öndər Heydər Əliyev tərəfindən həyata keçirilmişdir. Kənd təsərrüfatının inkişafına yönəldilən tədbirlər Prezident İlham Əliyev tərəfindən davam etdirilərək geniş vüsət almışdır. Belə ki, unudulmuş, tənəzzülə uğramış bir çox kənd təsərrüfatı sahəsi artıq dirçəldilib, onlara keçmiş şöhrəti qaytarılıb. Dövlət başçısı son illər pambıqçılığın, üzümçülüyün, tütünçülüyün, baramaçılığın, fındıqçılığın, çəltikçiliyin, meyvəçiliyin və s. inkişaf etdirilməsi məqsədilə mühüm sənədlər imzalayıb. Prezidentin bu istiqamətdə bölgələrdə keçirdiyi müşavirələr, kəndli və fermerlərlə, aqrar sahənin mütəxəssisləri ilə görüşləri, verdiyi tapşırıq və tövsiyələr öz müsbət nəticəsini göstərməkdədir.

Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət tərəfindən maliyyə yardımının göstərilməsi təmin edilir. Subsidiyaların ayrılması, güzəştli şərtlərlə gübrələrin verilməsi ilə yanaşı, fermerlər üçün güzəştli kredit imkanları da yaradılıb. Onlar həmçinin kənd təsərrüfatı texnikasını güzəştlə əldə edə bilirlər. Bütün bunlar sahənin inkişafına, əməkçilərin rifah halının yüksəldilməsinə və çox vacib bir məsələnin həllinə - ərzaq təhlükəsizliyinin yaranmasına xidmət edir.

Müasir dövrdə dünyanı düşündürən qlobal problemlərdən biri də məhz əhalinin ərzaq məhsulları ilə təminatıdır ki, bu istiqamətdə ölkəmizdə ardıcıl tədbirlər həyata keçirilir. Diqqət mərkəzində olan məsələlərdən biri də idxaldan asılılığı azaltmaq, ixrac potensialını yüksəltməkdir. Bu sahədə də irəliləyiş var. Hazırda Azərbaycan onlarca ölkəyə müxtəlif kənd təsərrüfatı məhsulları ixrac edir.

Ötən dövr ərzində ölkədə kənd təsərrüfatının modernləşdirilməsi, aqrar sektorda mövcud problemlərin həllinə sistemli və kompleks yanaşma, ölkənin aqrar potensialının təbliği istiqamətində də uğurlar qazanılıb. Buna Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminin yaradılmasını misal göstərmək olar.

Və nə xoş ki bu gün Qarabağa, Şərqi Zəngəzura torpağın öz sahibləri qayıdır, onu əkib-becərirlər. İşğaldan azad olunmuş torpaqlarımızda məhsul becərilir, yetişdirilir. "Ağıllı kənd"lərimizin sayı artır. Zəngilan rayonunun Ağalı kəndinin, Füzuli rayonunun Dövlətyarlı kəndinin sıralarına yeni "ağıllı kənd"lər qoşulacaq. "Ağıllı kənd təsərrüfatı" sahələri genişlənəcək, çoxalacaq. Qarabağın və Şərqi Zəngəzurun zəhmətsevər sakinləri torpağın, təbiətin imkanlarından istifadə edərək dövlətin köməyi ilə kənd təsərrüfatının bir çox sahəsini inkişaf etdirəcək, burada həqiqətən cənnət yaradacaqlar.

Deyilənlərə bu ilin ötən üç rübü ərzində ölkənin kənd təsərrüfatında görülən işlərə aid Dövlət Statistika Komitəsinin təqdim etdiyi bəzi fakt və rəqəmləri əlavə emək istərdik. Belə ki, bu ilin yanvar-sentyabr aylarında kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 10 milyard 418,5 milyon manat təşkil edib. Bunun 4 milyard 881,2 milyon manatı heyvandarlıq, 5 milyard 537,3 milyon manatı bitkiçilik məhsullarının payına düşür.

Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatının istehsalı 0,8 faiz artıb. Oktyabr ayının 1-nə kimi tarlalardan, qarğıdalı da daxil olmaqla, 3 milyon 134 min ton və ya əvvəlki ilin müvafiq dövrünə nisbətən 1,1 faiz çox dənli və dənli paxlalı bitkilər yığılıb. Keçən ilin eyni dövrünə nisbətən xeyli meyvə və giləmeyvə, tərəvəz, bostan məhsulları, günəbaxan, şəkər çuğunduru, pambıq, tütün, yaşıl çay yarpağı tədarük edilib. Heyvandarlıq sahəsində isə ət, süd, quş əti və yumurta istehsalı artıb.

Bunların hamısı onların əməyi ilə araya-ərsəyə gəlib. Torpağı əkib-becərən, çörək təknəmizin həmişə dolu olması üçün çalışan, süfrələrimizə yüz cür ləziz nemət göndərən kənd təsərrüfatı işçilərinin.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# 31 şəhid ailəsi üzvünə evlərində sosial-məişət xidməti göstərilir



**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi 31 şəhid ailəsi üzvünü evlərində (səyyar) sosial-məişət xidməti ilə təmin edir.**

Həmin ailələr Sumqayıt, Ağsu, Göyçay, Ağstafa, Gədəbəy, Şirvan, Goranboy, Mingəçevir, Naftalan, Quba, Hacıqabul və digər şəhər və rayonlarda yaşayırlar.

Agentliyin sosial xidmətçiləri şəhidlərimizin yadigarlarının evlərinə gedərək onlara ev təsərrüfatında, əsas tələbat mallarının alınması və s. işlərdə kömək göstərirlər.

Qeyd edək ki, əmək qabiliyyətli qohumları və ya qanuni nümayəndələri ilə eyni yaşayış məntəqəsində yaşamayan və sosial xidmətə ehtiyacı olan tənha ahıllara, ahıl ər-arvadlara, əlilliyi olan şəxslərə evlərində (səyyar) sosial-məişət xidməti göstərilir.

Hazırda 3,3 mindən çox şəxs həmin xidmətlə əhatə olunub. Onlardan 2560-ı qadın, 751-i kişidir.

# "Məzunların məşğulluq reytinqi" rəqəmsal platforması Qlobal Tanınma Mükafatına layiq görülüb




**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin "Məzunların məşğulluq reytinqi" rəqəmsal platforması ABŞ-nin aparıcı qiymətləndirmə proqramının müsabiqəsində Qlobal Tanınma Mükafatına ("Global Recognition Awards") layiq görülüb.**

Bu mükafat agentliyin əmək bazarının təhlili istiqamətində strategiyalarının beynəlxalq səviyyədə yüksək qiymətləndirildiyini göstərir.

Qeyd olunan qiymətləndirmə proqramı dünya miqyasında mükəmməlliyin və innovasiyanın təşviqinə yönəlib. Qlobal Tanınma Mükafatı xidmət, innovasiya, tədris, mentorluq və s. sahələrdə irəliləyişlərə malik olan iştirakçıların dünya miqyasında tanınmalarını təmin edir.

"Məzunların məşğulluq reytinqi" e-platforması ali təhsil müəssisələrini bitirən məzunların məşğulluğu və əmək bazarında aktual ixtisaslar barədə abituriyentlərin məlumatlılığını təmin edir və məzunların məşğulluq reytinqi xəritəsinin yaradılması məqsədi daşıyır.

Bu platformadan istifadə ixtisas seçimi ərəfəsində olan şəxslərə əmək bazarının tələblərinə uyğun seçim edə bilmək imkanı verir. Həmin e-platforma ilə https://emas.sosial.gov.az/graduates-emp-rating linkinə daxil olaraq tanış ola bilərsiniz.

# Türkiyədə TDT-yə üzv ölkələrin sosial müdafiə sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub

**Ankarada Türk Dövlətləri Təşkilatına (TDT) üzv dövlətlərin əmək və sosial müdafiə üzrə qurumlarının nümayəndə heyətlərinin iştirakı ilə "Türk dövlətlərində sosial müdafiə, iş həyatı və sosial xidmətlər" mövzusunda beynəlxalq konfrans çərçivəsində "dəyirmi masa" keçirilib.**

Tədbirin məqsədi təşkilata üzv dövlətlərin əmək və sosial müdafiə sahəsində əməkdaşlığının genişləndirilməsi, bu sahədə ümumi çağırışların müzakirəsi, uğurlu təcrübələrin mübadiləsidir.

"Dəyirmi masa"da iştirak edən Azərbaycanın əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev çıxışında türk ölkələri ilə əlaqələrin genişləndirilməsinin, TDT-nin gücləndirilməsinin ölkəmizin xarici siyasətinin prioritet istiqaməti olduğunu qeyd edib. O, bu il iyulun 5-6-da Şuşada dövlət başçılarının Zirvə görüşünün və imzalanmış "Qarabağ Bəyannaməsi"nin türk dünyasının inteqrasiyasının inkişafı üçün tarixi əhəmiyyətini vurğulayıb.

Nazir əhalinin layiqli həyat səviyyəsinin təmin edilməsində əmək bazarının inkişafı və sosial müdafiə sisteminin effektivliyinin vacibliyini, bu sahələrdə uğurlu təcrübələrin mübadiləsinin önəmini qeyd edib. S.Babayev ölkəmizdə aparılan sosial islahatların, DOST konsepsiyasının uğurlarını, DOST modelinin qardaş Özbəkistanda da tətbiqi ilə bağlı qarşılıqlı məlumat mübadiləsi aparıldığını diqqətə çatdırıb.

O, 2019-cu ildən Azərbaycanda həyata keçirilən 4 sosial islahat paketi nəticəsində sosial ödənişlərdəki ciddi artımları, həssas qrupların sosial xidmətlərlə əhatə olunması, sosial xidmətlərin avtomatlaşdırılması işlərini, ölkəmizdə qurulmuş proaktiv təyinat mexanizmlərini, e-sosial internet portalı və "Əmək və Məşğulluq" e-sisteminin innovativ üstünlüklərini qeyd edib.

Ölkələrimizin iqtisadi əməkdaşlığının genişləndirilməsinin əmək ehtiyatlarının da sərbəst hərəkəti ilə sıx bağlı olduğunu bildirən S.Babayev Azərbaycanla bir sıra türkdilli dövlətlərin əmək miqrasiyası sahəsində ikitərəfli müqavilələrin imzalandığını diqqətə çatdırıb. Nazir müsbət təcrübələrin mübadiləsində maraqlı olduğumuzu, bu toplantının TDT-yə üzv dövlətlərin əmək və sosial müdafiə sistemlərinin gücləndirilməsinə və ölkələrimiz arasında qeyd olunan sahələrdə əməkdaşlığın genişləndirilməsinə önəmli töhfə verəcəyini vurğulayıb.

Tədbirdə üzv ölkələrin əmək və sosial müdafiə sahəsində əməkdaşlığının genişləndirilməsi, bu sahədə ümumi çağırışlar müzakirə olunub, təcrübə mübadilələri aparılıb.

# Azərbaycan sənayesinin karbohidrogen ehtiyatlarından asılılığı sürətlə azalır

## Təkcə bu ilin 9 ayında qeyri-neft-qaz sənaye məhsullarının istehsalında 8,7 faiz artım qeydə alınıb

**Azərbaycanın sənaye ölkəsi olması istiqamətində ciddi addımlar atılır, əməli tədbirlər görülür. Bunu dünyada baş verən iqtisadi proseslər də tələb edir. Qiyməti ətrafda baş verən hadisələrə çox həssas olduğu üçün xammal ehtiyatlarına, xüsusən də neft-qaza bel bağlamaq olmaz. Ona görə də qeyri-neft sənayesini inkişaf etdirmək qaçılmazdır.**

Elə ölkəmizdə icra edilən iqtisadi islahatların əsas hədəfi də budur. Məqsəd sənayenin bu sektorunun dayanıqlı inkişafını təmin etməklə iqtisadi və maliyyə sabitliyinə nail olmaqdır. Son məlum hadisələr də göstərir ki, forsmajor hallarda başqa yol yoxdur.

Azərbaycanda bu istiqamətdə görülən işlər çoxdur. Onların sayəsində bir çox sənaye məhsulunun idxalının qarşısı alınıb, üstəlik, ixraca da imkan yaranıb. Yeri gəlmişkən, qeyd edək ki, sənaye parkları və sənaye məhəllələrində istehsal olunan məhsullar daxili tələbatın ödənilməsində mühüm rol oynamaqla yanaşı, ixracın artmasına da önəmli töhfə verir. Sənaye zonalarından söz düşmüşkən qeyd edək ki, qeyri-neft sənaye məhsulları istehsalının artmasında dövlətin sahibkarlığın inkişafına verdiyi dəstək xüsusi rol oynayır. Bunun nəticəsidir ki, sənaye məhsulları istehsalında özəl sektorun çəkisi ildən-ilə artır. Qeyri-neft-qaz sənayesində isə bu sektor bir neçə dəfə üstün paya malikdir.

Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar-sentyabr aylarında ölkə üzrə 47,8 milyard manatlıq və ya ötən ilin eyni dövrü ilə müqayisədə 1,3 faiz çox sənaye məhsulları istehsal edilmişdir. Məhsul istehsalı neft-qaz sektorunda 0,6, qeyri-neft-qaz sektorunda 8,7 faiz artmışdır. Sənaye məhsullarının 64 faizi mədənçıxarma, 30,2 faizi emal, 4,8 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 1 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur.

Hesabat dövründə sənayedə qeyri-dövlət sektorunun payı 81,1 faiz olmuşdur. Ümumi istehsalın 89,6 faizi sənaye məhsullarının istehsalı, 10,4 faizi sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına yaradılmışdır.

Mədənçıxarma sənayesində istehsalın ümumi dəyəri 30,6 milyard manat olmaqla keçən ilin müvafiq dövrünə nisbətən 0,6 faiz artmışdır. Bu dövrdə sahənin əsas məhsulu olan əmtəəlik neft hasilatı 21,6 milyon ton, əmtəəlik qaz hasilatı isə 28,3 milyard kubmetr təşkil etmişdir. Əmtəəlik neft hasilatı ötən ilin müvafiq dövrü ilə müqayisədə 4 faiz azalsa da, əmtəəlik qaz hasilatında 5,2 faiz artım olmuşdur.

Emal sənayesində isə 9 ayda 14 milyard 442,4 milyon manatlıq məhsul istehsal olunmuş və sənaye xarakterli xidmətlər göstərilmişdir. Qeyri-neft-qaz sektorunda dinamik inkişaf edən sahələrdən biri kimya sənayesi və əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatlarının istehsalı sahələridir. Yanvar-sentyabr aylarında bu sahələr üzrə 1 milyard 624,6 milyon manatlıq məhsul istehsal edilmişdir. Ötən ilin eyni dövrü ilə müqayisədə əczaçılıq məhsullarının istehsalı 47,4, rezin və plastik kütlə məmulatlarının istehsalı 23, kimya sənayesi məhsullarının istehsalı 9,6 faiz artmışdır.



Qeyri-neft-qaz sektorunda yüksək artım müşahidə olunan sahələrdən biri də tikinti materiallarının istehsalıdır. Hesabat dövründə həmin sahə üzrə 1 milyard 39,5 milyon manatlıq məhsul istehsal olunmuşdur ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 22,9 faiz çoxdur.

Metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalına gəldikdə, hesabat dövründə bu sahədə 1 milyard 25,5 milyon manatlıq məhsul istehsal olunmuşdur. Hazır metal məmulatlarının istehsalı sahəsində 38,1, metallurgiya sənayesi məhsullarının istehsalında 29,9 faiz artım müşahidə edilmişdir.

Kompüter, elektron və optik məhsulların, elektrik avadanlıqlarının istehsalı sahələrində isə 191,6 milyon manatlıq məhsul istehsal olunmuşdur. Keçən ilin müvafiq dövrü ilə müqayisədə kompüter, elektron və optik məhsulların istehsalı 42,9, elektrik avadanlıqlarının istehsalı 34,1 faiz artmışdır.

Açıqlanan rəqəmlərdən də aydın olur ki, ölkədə qeyri-neft-qaz sənayesinin inkişafı üçün görülən işlər səmərəsini verir. Bu növ məhsulların istehsalının artması yerli tələbatın ödənilməsində və ixracda önəmli rol oynayır ki, bu da ölkənin sənayeləşməsində əldə edilən müsbət nəticələrin göstəricisidir.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# "İcbari Sığorta Bürosu" Hüquqi Şəxslərin İttifaqı kateqoriya üzrə 3 nüfuzlu beynəlxalq mükafata layiq görülüb

"İcbari Sığorta Bürosu" Hüquqi Şəxslərin İttifaqı (İSB) Böyük Britaniyada keçirilmiş "Global Insurtech Awards" Mükafatlandırma Proqramında 3 kateqoriya üzrə mükafata layiq görülüb.




Fəaliyyətində innovativ texnologiyaların tətbiqinə daim önəm verən İSB İT layihələri, innovativ yanaşmalar və müştəri məmnuniyyətinə verdiyi töhfələr sayəsində uğur qazanıb.

Müştərilərlə əlaqələrin effektiv idarə olunması və onlara təqdim edilən xidmətlərin keyfiyyətinin artırılması nominasiyasında İSB-nin informasiya sistemi birincilik əldə edərək **"Best Customer Engagement Software"** mükafatına layiq görülüb.

**"Best Embedded Insurance Provider"** mükafatı üzrə ikincilik İSB-nin inteqrasiya olunmuş sığorta mexanizminin sektor üzrə yaratdığı yeniliklər və yüksək effektivlik nəzərə alınaraq verilib.

Daha bir nominasiya - **"Insurtech of the Year"** mükafatı üzrə ikincilik İSB-nin yeni texnologiya və proseslərin inkişafına verdiyi töhfələrə görə təqdim olunub.

Məlumat üçün bildirək ki, "Global Insurtech Awards" - dünya üzrə "insurtech" (sığorta texnologiyaları) sahəsində qabaqcıl yenilikləri və texnoloji həlləri tanıtmaq məqsədilə keçirilən mükafatlandırma proqramıdır. Böyük Britaniyada hər il keçirilən proqram çərçivəsində sığorta sahəsində innovativ həllərə imza atan qurumların (bürolar, şirkətlər, startaplar) texnoloji nailiyyətləri qiymətləndirilir. İSB-nin bu proqram çərçivəsində qazandığı uğurlar ölkəmizin sığorta sisteminin beynəlxalq səviyyədə tanınmasına, Azərbaycanın sığorta sektorundakı texnoloji yeniliklərinin dünya miqyasında təbliğinə töhfələr verəcək.


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2024-cü il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# "Dünyanın ədalətli söhbətə ehtiyacı var"

## Aleksandr LUKAŞENKO: "Qlobal təhlükəsizliyin təmin edilməsi üçün işlək mexanizmlər yaratmaq barədə düşünməliyik"

**Oktyabrın 31-dən noyabrın 1-dək Belarusun paytaxtı Minsk şəhərində Avrasiya təhlükəsizliyi üzrə II Beynəlxalq konfrans çərçivəsində tədbirlər keçirilir. Konfransda 40-dan çox ölkədən 600-ə yaxın nümayəndə iştirak edir.**





BELTA rəsmi dövlət agentliyi xəbər verir ki, bunlar Avrasiyanın hər yerindən gəlmiş yüksəksəviyyəli qonaqlar, ATƏT, MDB, ŞƏT ölkələrinin nümayəndələri, bir sıra beynəlxalq təşkilatların rəhbərləri, regionun aparıcı ekspertləridir.

Konfransı işıqlandırmaq üçün 150 yerli və xarici jurnalist akkreditə olunub.

Belarus Xarici İşlər Nazirliyinin mətbuat katibi Anatoli Qlazın bildirdiyinə görə, konfrans iştirakçıları hesab edirlər ki, tədbir hər kəsə Avrasiyanın gələcək təhlükəsizliyinin perspektiv konturlarını, regionun gələcək təhlükəsizliyini müzakirə etməyə və birgə konturları müəyyənləşdirməyə imkan verəcək. Həmçinin Belarus Respublikasının irəli sürdüyü və strateji tərəfdaş olan Rusiya Federasiyası tərəfindən dəstəklənən təşəbbüs - XXI əsrdə Müxtəlifliyin və Coxqütblülüyün İnkişafı üzrə Avrasiya Xartiyasının işlənib hazırlanması müzakirə ediləcək.

"Dünyanın ədalətli söhbətə və cari hadisələrin qərəzsiz qiymətləndirilməsinə həyati ehtiyacı var". Bu barədə Belarus Prezidenti Aleksandr Lukaşenko Avrasiya təhlükəsizliyi üzrə II Minsk Beynəlxalq konfransının açılışında bildirib: "Müxtəliflik və Çoxqütblülük Xartiyası təhlükəsizlik sahəsində konsensusa kömək etmək üçün nəzərdə tutulub. Təəssüf ki, bu gün beynəlxalq təhlükəsizlik mövzusunda açıq, konstruktiv ekspert müzakirələrinin aparılacağı platformaları barmaqla saymaq olar".

Prezidentin vurğuladığı kimi, mövcud təhlükəsizlik problemlərinin həllinin açarı Avrasiyadadır: "İndi biz hərbi qarşıdurmaların və xərclərin yükünü necə atmaq, cari problemlərin həllində yeni açar tapmaq və qlobal təhlükəsizliyin təmin edilməsi üçün işlək mexanizmlər yaratmaq barədə düşünməliyik. Belə bir açar Avrasiyadadır, mədəniyyətlər və sivilizasiyalar arasında qarşılıqlı əlaqələr və maraqlar burada kəsişir. O, gələcəkdə də burada olacaq. Məhz Avrasiyada ümumi təhlükəsizliyə doğru hərəkata rəhbərlik etməyə qadir olan və artıq bir sıra təşəbbüslər irəli sürən ölkələr var".

Konfrans oktyabrın 31-də yüksəksəviyyəli sessiya ilə başlayıb. Macarıstanın xarici işlər və xarici ticarət naziri Peter Siyarto, Rusiyanın xarici işlər naziri Sergey Lavrov və digər ölkələrin rəsmi təmsilçiləri çıxış ediblər.

Qonaqlar arasında həmçinin regiondakı beynəlxalq təşkilatların rəhbərləri - KTMT, AQFET, MDB baş katibləri, İttifaq dövlətinin dövlət katibi var.

Yüksəksəviyyəli sessiyanın keçirildiyi məkanda BELTA-nın "Suveren Belarus" və "Belarus. Yüksəliş" sərgiləri açılıb.

Xatırladaq ki, ilk konfrans da 2023-cü il oktyabr ayının sonunda Belarus paytaxtında keçirilib. Tədbir zamanı Müstəqil Dövlətlər Birliyi, Şanxay Əməkdaşlıq Təşkilatı və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının 30 ölkə və strukturlarından 120-yə yaxın nümayəndə heyəti qlobal və regional təhlükəsizlik sahəsində böhranın aradan qaldırılması yollarını müzakirə ediblər.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti ASCO-nun struktur idarələrinə tələb olunan FMV-nin (geyimlərin) satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 07 noyabr 2024-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***


# Qış vaxtına keçək, yoxsa yayda qalaq?

Hər il oktyabrın və martın son bazar günü bəzi ölkələrdə saatların əqrəbi bir saat irəli və ya geri çəkilir. Bu siyahıda əvvəllər bütün ölkələrin adları olsa da, zaman içərisində onların əksəriyyəti bu və ya digər səbəblərdən yay və qış saat keçidindən imtina etdilər.



Saat əqrəblərinin mövsümi olaraq irəli və geri çəkilməsinin ideoloji ilhamvericisinin Benjamin Franklin olduğu bildirilir. O, Günəşin yüksəkdə olduğunu və insanların daha bir saat işləyə biləcəyini qeyd edərək, saatın əqrəbinin irəli və geri çəkilməsinə ehtiyac yarandığını bildirmişdi. 1916-cı il aprelin 30-da əqrəblər bir saat irəli, 1916-cı il oktyabrın 1-də isə bir saat geri çəkilmişdir.

Saatın əqrəbləri ilk dəfə Birinci Dünya müharibəsi zamanı Almaniyada çəkilib. 1918-ci il martın 9-da ABŞ Konqresi elektrik enerjisi istehsal etmək üçün istifadə olunan yanacağa qənaət etmək məqsədilə yay vaxtından istifadəni tətbiq edib.

Hazırda dünyanın təxminən 160-dan çox ölkəsində yay və qış vaxtına keçid tətbiq edilmir. Azərbaycan da uzun illərdir bu ölkələr sırasındadır. Nazirlər Kabinetinin 17 mart 2016-cı il tarixli 131 nömrəli qərarı ilə saat əqrəbinin irəli-geri çəkilməsi dayandırılıb, yəni ölkəmiz qış rejimində qalıb.

### Avropada insanlar saat əqrəblərinin dəyişdirilməsinə qarşı çıxırlar

Avropa hələ ki, payız və yaz aylarında saat əqrəblərinin dəyişdirilməsi ənənəsini qoruyur. Lakin insanlar onun ləğvini tələb edirlər. Avropa Parlamentinin üzvləri Avropa Komissiyasının rəhbəri Ursula fon der Lyayenə payızdan yaza və geriyə vaxt dəyişikliyini ləğv etmək vədini yerinə yetirmək tələbi göndəriblər.

"Araşdırmalar göstərir ki, vaxtın dəyişdirilməsi yuxu rejiminə mənfi təsir göstərir, infarkt və insult riskini artırır, yol qəzalarının sayının artmasına səbəb olur", - 60 deputatın məktubunda deyilir.

2018-ci ildə aparılan sorğu Avropa İttifaqı vətəndaşlarının 84 faizinin vaxtı dəyişməkdən yorulduğunu göstərib. Nəticədə Avropa Parlamenti onun ləğvinin lehinə səs verib və Aİ-nin ozamankı rəhbəri Jan-Klod Yunker bu qərarı həyata keçirəcəyinə söz verib. 2019-cu ildə Ursula fon der Lyayen Yunkerin yerinə keçib, onun vədini isə miras alıb.

Beynəlxalq araşdırmalar göstərir ki, saatların irəli-geri çəkilməsi heç də bütün ərazilərdə fayda vermir. Tropik və ekvatorial en dairələrində gündüzün uzunluğu il ərzində demək olar ki, dəyişmir. Qütblərdə, ona yaxın ərazilərdə uzun gecə və ya gündüzlər də bu addımı səmərəsiz edir.

Saatların irəli-geri çəkilməsi bəzi insanlara psixoloji, fizioloji və bioloji təsir edir. Belə ki, xüsusilə meteohəssas insanlar özlərini təxminən 10 gün narahat hiss edirlər. Onların birdən-birə bioloji saatları dəyişir. Yəni həmişə saat 8-də yuxudan durmağa öyrəşmiş, yaxud axşam 10-da yatmağa öyrəşmiş insan rejimini bir saat önə və yaxud da geri çəkmək məcburiyyətində qalır. Təbii ki, insanın potensial imkanları geniş olduğundan tədricən buna da öyrəşir.

### Payız və yaz saat rejiminə keçid şimal ölkələri üçün uyğundur

Mütəxəssislər payız və ya yaz saatının daimi tətbiqinin mənfi tərəflərinin daha çox olduğunu bildirirlər. Ankara Universitetinin Tibb fakültəsinin alimləri yay saatının daimi tətbiqinin bioloji ritmi pozduğunu və bunun da hüceyrədəki DNT təmir mexanizmini zədələdiyini irəli sürüblər. Əgər DNT özünü bərpa edə bilmirsə, hüceyrə xərçəng hüceyrəsinə çevrilir. Onların fikrincə, Türkiyədə xərçəng xəstəliklərinin artmasının ən başlıca səbəblərindən biri də məhz yay vaxtının qalıcı olmasıdır. Beş-altı il öncə Türkiyədə 160 min xərçəng xəstəsi var idisə, indi 250 minə yaxındır.

Əslində, payız və yaz saat rejiminə keçidin ləğvinin əsas məqsədi elektrik enerjisinə qənaət idi. 2016-2017-ci illərdə həyata keçirilən ilk tətbiqdən sonra başda Türkiyənin Elektrik Mühəndisləri Palatası istehlak məlumatlarını araşdıraraq, təhlillər apararaq elektrik enerjisi istehlakında qənaət edilmədiyini ortaya çıxarıb. Qurum müraciətin ilk ilində elektrik enerjisi istehlakında əvvəlki ilin eyni aylarına nisbətən 7 milyard kilovat-saat artım olduğunu və bu artımın yalnız iqtisadi artım rəqəmləri ilə izah edilə bilməyəcəyini açıqlayıb. Məlum olub ki, ölkədə qış vaxtından imtina nəinki elektrik istifadəsinə qənaət etmədi, əksinə, istehlakın artmasına səbəb oldu.

Əslində, saatların irəli-geri çəkilməsində böyük problem olmadığı kimi, ciddi ehtiyac da yoxdur. Saat dəyişimi daha çox şimal ölkələrinə hansısa təsir göstərə bilər. O ölkələrdə açıq, işıqlı hava az olduğundan, saat dəyişimi nəticəsində daha çox günəş işığı görülür. Bütün bunlar nəzərə alınaraq demək olar ki, payız və yaz saatına keçidin ölkəmizin yerləşdiyi saat qurşağı səbəbindən ciddi əhəmiyyət kəsb etmir. Bizim üçün müsbət olmadığı kimi, mənfi tərəfi də yoxdur.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Ermənistanda əhali yaşamır, sürünür

## Bağlı qapılar arxasında Paşinyana qarşı yeni hərəkat yaratdılar

Postmüharibə dövründə yaranan mövcud sosial-iqtisadi durum, Azərbaycanla sülh müqaviləsinin imzalanmasının müxtəlif bəhanələrlə uzadılması Ermənistanda yaşayış səviyyəsinə də təsirsiz ötüşməyib. İndi bu ölkə daha böyük sürətlə uçuruma doğru gedir. Siyasi ekspert Ananiya Maqakyan deyib ki, Ermənistan əhalisi yaşamır, sürünür. İnsanlar aclıq və səfalət içindədir. Bir qrup isə o qədər varlanıb ki, artıq bir-biri ilə didişir.

O əlavə edib ki, bütün bunların fonunda daha vacib bir məsələ var: "Ermənistanda növbədənkənar parlament seçkilərinin keçirilməsi ilə bağlı müzakirələr başlayıb. Görəsən, Azərbaycan Ermənistanda növbədənkənar seçkilərin keçirilməsinə icazə verəcəkmi?"

"4rd.am" nəşri yazır ki, istənilən ölkədə sənayenin bərpası ilk olaraq ölkəyə qoyulan investisiya və ayrılan kreditlər hesabına təşəkkül tapır: "İndi isə gəlin baxaq - müharibədən sonra Ermənistana investisiya qoyan hər hansı bir investorla rastlaşan olubmu? Əksinə, müharibəyə qədər ölkədə mövcud olan azsaylı investorlar da Paşinyan hakimiyyətinə inamsızlıq üzündən Ermənistanı tərk ediblər".

Qeyd olunur ki, bu halda ümid ancaq bank kreditlərinə qalır ki, burada da bank rəhbərləri inamsızlıq ucbatından Ermənistan iqtisadiyyatının real sektoruna daxil olmaqdan çəkinirlər. Təsadüfi deyil ki, Ermənistanda son 3 il ərzində ölkə sənayesinə kredit qoyuluşları 42 milyon dollar azalıb.

Buna görədir ki, artıq iflic vəziyyətində olan Ermənistan iqtisadiyyatının rəqabətə davamlılıq reytinqi aşağı düşməkdədir. Elə ötən 8 ay ərzində ölkə iqtisadiyyatının rəqabət imkanları nəzərəçarpacaq dərəcədə zəifləyib. Buna səbəb dövlət rəsmilərinin korrupsiyaya qurşanması, qanunun aliliyi ilə bağlı problemlərin həllini tapmaması və biznes üçün bərabər şəraitin yaradılmamasıdır. Məhkəmə sisteminin müstəqilliyi yarıtmaz vəziyyətdədir, vergilərin toplanmasında korrupsiya halları geniş vüsət alıb, hökumət iqtisadi inhisarçılığa qarşı mübarizə aparmaqda acizdir.

Bütün bunların nəticəsidir ki, Ermənistanda Nikol Paşinyan hökumətinə qarşı "Üçüncü Qüvvə" platforması yaradılıb. "Past" nəşrinin yazdığına görə, bu qurumun məqsədi Ermənistanda hakimiyyət dəyişikliyi etməkdir. Qeyd edilir ki, Ermənistanın ictimai-siyasi həyatında əlamətdar hadisə baş verib. İrəvanda "Elit Plaza" biznes mərkəzində bağlı qapılar arxasında, mediasız, bir neçə partiya və onlarca QHT-nin iştirakı ilə toplantı keçirilib. İclasda "Üçüncü Qüvvə" platformasının yaradıldığı elan edilib. Üç saat davam edən tədbirə 600-ə yaxın insan qatılıb.

Bildirilib ki, toplantıda təkcə Ermənistan yox, xaricdən, həm Rusiya, həm də Qərbdən çox sayda erməni ictimai-siyasi xadimləri iştirak edib. Gərgin müzakirələrin sonunda platformanın "yol xəritəsi" qəbul olunub. Yeri gəlmişkən, hələ martın ortalarında Arman Vardanyanın rəhbərlik etdiyi "Birlik" hərəkatı mövcud siyasi sistemə real alternativ kimi güclü siyasi qütbün formalaşdığını açıqlamışdı. Bundan sonra hərəkat eyni məqsəd çərçivəsində bir neçə kütləvi tədbir keçirmişdi.

Görünən odur ki, Paşinyan hakimiyyəti getdikcə dərinləşən problemlərə son qoymaq iqtidarında deyil. Elə bu səbəbdən qarşıdakı müddət ərzində Ermənistanda vəziyyətin daha da pisləşməsi gözlənilir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***


**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4165**
**Sifariş 2480**

**Qiyməti 60 qəpik**